# İQTİSADİ ARAŞDIRMALAR

# № 1

*«İqtisadi araşdırmalar» jurnalı, (İAJ) 2017-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 4124 qeydiyyat nömrəsi ilə dövlət reyestrinə alınmış beynəlxalq elmi jurnaldı.*

*İqtidai araşdırmalar jurnalı, mərkəzi Fransanın Paris şəhərində yerləşən dövri nəşrlər üçün nəzərdə tutulan Beynəlxalq Standart Seriya Nömrəsi (International Standard Serial Number) təşkilatından qeydiyyatdan keçmişdir (ISSN 2522-9451).*

**"Elm və təhsil"**
**Bakı – 2017**

**REDAKSİYA HEYƏTİ**: akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, Əli Nuriyev, iqtisad elmləri doktoru, professor Rasim Nəbiyev, iqtisad elmləri doktoru, professor İsa Alıyev, iqtisad elmləri doktoru, professor Yaşar Kəlbiyev, iqtisad elmləri doktoru, professor Tərbiz Əliyev, iqtisad elmləri doktoru, professor Yadulla Həsənli, iqtisad elmləri doktoru, professor İbad Abbasov, iqtisad elmləri doktoru, professor Vilayət Vəliyev, professor İsmayıl Tatlıoğlu (Türkiyə),

**Buraxılışı məsul: AMEA-nın müxbir üzvü, Əli Nuriyev**
**İqtisadi araşdırmalar. Bakı, 2017, № 1 (noyabr).**

**ISSN 2522-9451**

**© ”Elm və təhsil” nəşriyyatı, 2017**

www.iqtisadiarasdirmalar.com

# İQTİSADİYYAT

**İNTIZAR QURBANOVA**
**Sumqayıt Dövlət Universiteti**

## ALİ MƏKTƏBLƏRƏ ƏLAVƏ MALİYYƏ VƏSAİTLƏRİNİN CƏLB OLUNMASI YOLLARI

**Açar sözlər:** maliyyə, kapital, ali məktəb, təhsil, keyfıyyət, himayədarlıq, idarəetmə.
**Ключевые слова:** финансы, капитал, ВУЗ, образования, качество, попечителъство, управление.
**Key words:** finance, capital, higher school, education, quality, sponsor, management.

Giriş

Strateji sahələrdən biri olan təhsil sistemi daima dövlətin və cəmiyyətin diqqət və qayğısına ehtiyac duyur. Cəmiyyətdə elə bir insan yoxdur ki, təhsil ilə hər hansı şəkildə əlaqəsi olmasın. Belə ki, hər bir insan özü və yaxınları təhsil sisteminin müəyyən mərhələlərindən keçir. Buna görə də təhsil sisteminə diqqət və qayğı yalnız dövlətin deyil, hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin borcudur. Sürətlə yeniləşən, inkişaf edən dünyada təhsilə diqqət daha da artırılmalı yeni və qabaqcıl modeller sistemi tətbiq olunarkən əvvəlki modelin üstünlükləri də qorunub saxlanılaraq ən optimal variant seçilməlidir.

Bu gün dövlətin və cəmiyyətin təhsil sistemindən gözləntiləri əsasən keyfiyyətlə bağlıdır. Bunun üçün isə ölkənin güclü iqtisadiyyata malik olması labüddür. Keçən əsrin son illərindən başlayaraq inkişaf etmiş ölkələrin ümumi məhsulunun strukturunda biliklərə əsaslanan yeni iqtisadiyyat aparıcı yer tutur. Bu ölkələrdə intellektual əmək sayəsində yaradılan ümumdaxili məhsulun payı ilk 3 yerdən birini tutur və artmaqda davam edir. [3, s. 13]

Hazırda ölkəmizdə iqtisadiyyatın heç də zəif olmadığını, əksinə, getdikcə daha da inkişaf edərək bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşaraq inkişaf etmiş ölkələrin sırasına qoşulmaq əzmində olduğunu, həm neft, həm də qeyri-neft sektorunun sürətli inkişaf dinamikasını nəzərə alaraq təhsil sisteminin də inkişafına kifayət qədər imkanların olduğunu deyə bilərik. Sadəcə olaraq, bu imkanların araşdırılıb səmərəli formada təhsilin inkişafına yönəldilməsi lazımdır.

Ali təhsil müəssisələrinin fəaliyyətinin effektiv modeli ölkənin inkişafının texnoloji, iqtisadi və demoqrafik meyilləri ilə müəyyən olunur. Müasir inkişaf meyillərini nəzərə alsaq təhsil müəssisəsi qarşısında duran məsələləri aşağıdakı kimi təsnifləşdirə bilərik:

- yüksək keyfıyyətli, yəni, beynəlxalq bazarda rəqabət qabiliyyətli fasiləsiz təhsilin təmin olunması;
- dövlət və bələdiyyə idarəetmə orqanları üçün, iqtisadiyyatın sahələri üçün məsləhət xidmətinin təmini;
- ali məktəblərin təhsil xidmətlərinin fəaliyyətin digər əsas növləri ilə - elmi tədqiqatlarla məsləhətləşmə və idarəetmə ilə əlaqəsi və s.
- Göstərilən təhsil xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, biznes, cəmiyyət və təhsil müəssisəsi arasındakı qarşılıqlı əlaqələrin təmin olunması üçün Ali məktəblərin Himayədarlıq Şurasının yaradılması, həmçinin müəssisənin maliyyə sabitliyi məqsədilə - Məqsədli Kapital Fondunun formalaşdırılması mümkündür.

**Ali məktəblərdə Himayədarlıq Şurasının yaradılması**

Ali məktəblərin fəaliyyət prosesində əsas məqsədlərindən biri təhsilin kefıyyətinin daima yaxşılaşdırılmasının vacibliyi və gələcəkdə onun dünya standartları səviyyəsinə çatdırılmasıdır. Bu məsələnin yerinə yetirilməsi adətən, təhsillə ali məktəblərin (AM) ixtisaslaşdırılması sahəsində işləyən təşkilatların qarşılıqlı əlaqələrinin gücləndirilməsi yolu ilə həyata keçirilir. Həmçinin AM-lərdə tədris olunan fənlərin nəzəri əsaslarını daha dərindən öyrənilməsi və AM-in elmi bazasının inkişaf etdirilməsi və elmi tədqiqatların maarifləndirmə prosesinin ayrılmaz komponentinə çevrilməsi yolu ilə həyata keçirilir.

Təhsilin keyfıyyətinin artırılmasına nail olmaq üçün təklif olunan yeniliklərdən biri Himayədarlıq Şurasının yaradılmasıdır. Himayədarlıq Şurası AM-in daimi fəaliyyət göstərən məsləhətçi orqanı kimi müəssisənin inkişafında yaranan aktual məsələlərin həllinə kömək edir. Müəssisənin seçilmiş sahələr üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün fasiləsiz təhsil mərkəzi kimi inkişaf etməsi də belə məsələlərdəndir.

Himayədarlıq Şurası tədris-metodiki kompleksin maddi-texniki təminatının yaxşılaşdırılmasına, ictimai aləmdə AM-in yüksək nüfuz qazanmasına, onun dövlət hakimiyyəti və idarəetmə orqanları ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə, beynəlxalq əməkdaşlıq da daxil olmaqla bizneslə əməkdaşlığın artmasına imkan verə bilər.

Himayədarlıq Şurası AM rəhbərliyinin yüksək orqanının-hakimiyyət və idarəetmə orqanları nümayəndələrindən, elm və təhsil müəssisələrindən, işgüzar dairələrdən, ictimai birliklərdən, bir sözlə, bu AM-in inkişafında və fəaliyyətinin təkmilləşməsində marağı olan digər şəxslərdən asılıdır. Bu orqan həmin AM-in öz nümayəndələrindən ibarət olan Elmi Şuranın qərarı

ilə yaradıla bilər. Şuranın tərkibi məmurların və biznes nümayəndələrinin bilavasitə iştirakı ilə elə formalaşdırılır ki, ölkə iqtisadiyyatının tələblərinə cavab verən mütəxəssislərin hazırlanması planını müvafiq olaraq yerinə yetirməyə imkan versin.

Şübhəsiz ki, cəmiyyət, biznes və dövlət arasında əlaqəni inkişaf etdirən amil, dövlət sektoru və özəl müəssisələrin yüksək peşəkar kadrlarla təmin olunmaq asılılığının olmasıdır. Hansı ki, belə kadrların hazırlanmasında və ixtisasının artırılmasında əsas rolu hələ də dövlət ali təhsil müəssisələri oynayır. AM-lərin bir çoxu öz ixtisaslaşdırılmış maarifləndirmə bazasına əsaslanır və yalnız ilkin hazırlığı deyil, kadrların vaxtaşırı yenidən hazırlanması və ixtisasının artırılmasını da təmin etməyə qadirdir. Bütövlükdə, insan resurslarına kapital qoyuluşu bütün cəmiyyət üçün xeyirlidir. Çünki, təhsil sisteminin keyfiyyətinin yüksək olması həm dövlətə, həm də biznesə iqtisadiyyatda rəqabətqabiliyyətliliyin artırılmasına fayda verə bilər.

Bütün maraqlı olan tərəflərin daha effektiv qarşılıqlı əlaqəsi üçün AM-lərin Himayədarlıq Şurasının yaradılması məqsədəuyğundur. Himayədarlıq Şurasının üzvləri AM-i dəstəkləməli, dövlətin, cəmiyyətin və biznesin birgə maraqlarını və əlaqələrini inkişaf etdirməlidir. Onlar həmçinin ali idarəetmə orqanı olan Elmi Şuranın iclaslarında iştirak etmək və səs vermək hüququna malikdirlər.

Himayədarlıq Şurası lazım gəldikdə öz iclaslarını keçirə bilər. Onun qərarı AM rəhbərliyi üçün mütləqdir. Bu qərarlar üzvlərin böyük hissəsinin iştirak etdiyi iclaslarda qəbul olunur. Himayədarlıq Şurasının funksiyaları yalnız AM-in dövlət, bələdiyyə orqanları, kommersiya və qeyri-kommersiya təşkilatları ilə əlaqələrinin genişləndirilməsi və cəmiyyətin maarifləndirmə tələbatlarının ödənilməsinin təmin olunması ilə bitmir. AM-lərin tədris və elmi fəaliyyətlərinin təmin olunması üçün maliyyə resurslarının cəlb edilməsi, müəssisənin uzunmüddətli inkişaf proqramının işlənilib qəbul olunması, mütəxəssislərin hazırlanma keyfiyyətinin artırılmasına kömək edən perspektiv proqramların həyata keçirilməsinin təmini və s. də bu funksiyalara daxildir. Başqa sözlə desək, Himayədarlıq Şurası AM-in fəaliyyətində bilavasitə iştirak edir, tələbələrin və dinləyicilərin hazırlanma keyfiyyətinə və kəmiyyətə nəzarət edir, beynəlxalq AM-lər də daxil olmaqla digər Ali təhsil müəssisələri ilə six əlaqələr yaradır, həmçinin büdcə və qeyri-büdcə vəsaitlərinin effektiv və qənaətli istifadə olunmasına təminat verir.

Əlavə maliyyənin cəlb olunması məsələsi həm də Məqsədli Kapital Fondunun yaradılması və ona donor vəsaitlərinin cəlb edilməsi yolu ilə həyata keçirilə bilər.

Məqsədli Kapital Fondunun (MKF) yaradılması

Təhsilin və elmin inkişafı proqramının maliyyələşdirilməsi üçün MKF-nin yaradılması təklif olunur. Başqa sözlə, AM-in məqsədli kapitalı gəlir

əldə olunmasına yönəldilir, yaranan gəlir isə öz növbəsində AM-inproqramlarının maliyyələşdirilməsinə, müəssisənin müxtəlif istiqamətlərdə inkişafına və s. yönəldilir.

Təhsil müəssisəsi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir. [1, maddə 38. (2)]

İstənilən dövlət müəssisəsində və ya qeyri-kommersiya təşkilatında məqsədli kapitalın olması 2 əsas məsələnin həlli üçün nəzərdə tutulur:

1. Təşkilatın ümumi gəlirində zəmanət verilən gəlirin payının artırılması nəticəsində maliyyə sabitliyinin yüksəldilməsi.

2. Uzunmüddətli maliyyələşdirmə mənbəyinin olduğu şəraitdə fəaliyyətin uzunmüddətli planlaşdırılması imkanı.

Burada məqsəd AM-in kadr siyasətinin və tədris prosesinin təkmilləşdirilməsindən, maddi bazasınm möhkəmləndirilməsindən, elmi bazanın inkişaf etdirilməsindən ibarətdir. Bu zaman aşağıdakı istiqamətlərə önəm verilməlidir:

- təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi (yeni tədris metodlarının tətbiqi və peşəkar pedaqoji heyətin genişləndirilməsi vasitələri ilə);
- ödənişli əsaslarla təhsil alan tələbələrin ödəniş haqlarının azaldılması;
- AM-in xərc tələb edən istiqamətlərinin inkişafı: məsələn, təhsil alanların staj keçmələri;
- istedadlı tələbələrə, magistrant və doktorantlara dəstək olmaq, gənc alimlərin vө digərlərinin həvəsləndirilməsi və s.

MKF donorların (ianəçilərin) pul vəsaitləri hesabına formalaşır və minimum müddəti 10 il təşkil edir. Yığılmış məbləğ təxminən 3 mln. manat təşkil edərsə, 2 ay ərzində İdarəetmə Kompaniyasının (İK) ixtiyarına verilməlidir. İK lisenziya əsasında belə fəaliyyəti peşəkar surətdə həyata keçirir. Məhz, İK MKF-ni təşkil edən vəsaitləri sərmayələşdirir. Bununla yanaşı MK haqqında əsasnamə itki risqini azaltmaqla fondun sərmayələşdirilməsi istiqamətlərini məhdudlaşdırır. Məqsədli kapitalı formalaşdıran pul vəsaitləri xarici valyuta da daxil olmaqla aktivin yalnız şərtləşdirilmiş növlərinə yerləşdirilə bilər. Lakin, məqsədli kapital etibarlı idarəetməyə verilməzdən əvvəl MKF kapitalı idarə edəcək orqanın heyətini və say tərkibini müəyyən etməlidir. Beləliklə, məqsədli kapitalın idarə olunması bu şəkildə baş verir. MKF-də ixtisaslaşdırılmış orqan-Himayədarlıq Şurası (onu başqa formada məqsədli kapitalın istifadəsi üzrə Şura adlandırmaq olar) yaradılır. Onun

tərkibinə AM-in, dövlət orqanlarının nümayəndələri, ianəçilər, xeyriyyəçilər, tanınmış ictimaiyyətçilər, yəni, cəmiyyət qarşısında müəyyən xidmətləri olan şəxslər və ya AM-in profilinə müvafiq olan fəaliyyət sahəsində müəyyən nailiyyət qazananlar daxildir.

Tanınmış şəxslərdən ibarət kollegial orqanın olması həm donorlara, həm də cəmiyyətə əminlik verir ki, belə idarəetmə orqanı ictimai əhəmiyyətli məqsədləri rəhbər tutacaq və toplanmış vəsait məqsədyönlü şəkildə istifadə olunacaq. MKF-nin Himayədarlıq Şurasının tərkibinə AM-in Himayədarlıq Şurasının nümayəndələri daxil olmaqla onlar həmin AM-in cəmiyyətlə qarşılıqlı əlaqələrini təmin etməlidirlər.

İanəçi Fonda ianə qoyan zaman müqavilə bağlayarkən məqsədli kapitaldan gəlir götürənlər konkret müəyyən edilə və məqsədli kapitalın gəlirinin konkret məqsədlər üçün istifadəsi təyin oluna bilər. Müqavilədə belə təyinatlar nəzərdə tutulmadıqda məqsədli kapitalın gəlirinin necə istifadə edilməsini MKF-nin nizamnaməsinə əsaslanmaqla fondun Himayədarlıq Şurasının özü müəyyən edir. Cəmiyyət və donorlar məqsədli kapitalın formalaşması, istifadəsi, məqsədli kapitaldan gələn gəlirin bölüşdürülməsi barədə internet saytı vasitəsilə məlumatlandırılırlar.

Beləliklə, MKF-nin Himayədarlıq Şurasının səlahiyyətlərinə aşağıdakılar daxildir:

- idarəedici kompaniyanın seçimi;
- məqsədli kapitaldan gələn gəlirin məqsədyönlü istifadəsinin təyin olunması, həmçinin məqsədli kapitaldan gəlir götürənlərin, kapitalın formalaşdırılması müddətinin, əldə olunan gəlirin hesabına ödənişin həcmi, dövrilik və digər şərtlərin müəyyən edilməsi;
- məqsədli kapitalın istifadəsi haqqında müqavilənin şərtlərinə əməl olunmasına, kapital vəsaitlərinin məqsədli xərclənməsinə və onun gəlirlərinin sərmayələşdirilməsinə nəzarət;
- məqsədli kapitalın formalaşdırılması və istifadəsi ilə bağlı digər məsələlər.

MKF-nin Himayədarlıq Şurası lazım gəldikdə öz iclaslarını keçirməlidir. Beləliklə, MKF Ali məktəb üçün maliyyə sabitliyinin təminatının səmərəli aləti kimi çıxış edir. O, özəl-dövlət əməkdaşlığının xüsusi formasına əsaslanır. Bu zaman dövlət AM-in fəaliyyət xərclərini büdcədən maliyyələşdirir, stimullaşdırıcı siyasət yürütmək və bir sıra qanunverici aktlar qəbul etməklə əlverişli şərait yaradır. Özəl sektor isə təhsilə sərmayə qoyaraq ixtisaslaşmış mütəxəssislər qazanır, müəssisələri genişləndirir və bütövlükdə iqtisadiyyatı inkişaf etdirir. Üstünlük ondadır ki, bu mexanizmin qəbulu birdəfəlik ianələrdən fərqli olaraq (belə ki, birdəfəlik ianələr vaxtaşırı və qeyri-sabit şəkildə daxil olur) sabit və uzunmüddətli qeyri-büdcə gəlir mənbəyi əldə etməyə və müvafıq olaraq təhsil müəssisəsinin fəaliyyətinin

uzunmüddətli planlaşdırılmasına imkan verir. Bu da öz növbəsində yuxarıda qeyd olunan məqsədlərə çatmağa şərait yaradır, Bundan əlavə vergi yükünün olmaması məqsədli kapitalın formalaşması kimi səmərəli iqtisadi mexanizmin istifadə olunmasına marağı artırır. Məqsədli kapitalın formalaşmasına pul vəsaitlərinin verilməsi vergi ödəmə obyekti sayılmır. Belə ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə, fiziki şəxs və ya xeyriyyə təşkilatı tərəfindən həyata keçirilən və maddi və ya digər yardıma ehtiyacı olan fiziki şəxslərə və ya bilavasitə bu cür yardım göstərən təşkilatlara, o cümlədən xeyriyyə təşkilatlarına, birbaşa bu cür təmənnasız yardım göstərməkdən, o cümlədən əvəzsiz pul köçürməkdən ibarət olan fəaliyyət, yaxud bu Məcəllədə digər hallar nəzərdə tutulmamışdırsa, ictiraai mənafelər naminə həyata keçirilən elmi, təhsil və ya başqa fəaliyyət – xeyriyyəçilik fəaliyyəti sayılır. [2,13. 2. 35.] Mədəniyyət, incəsənət, teatr, kino, radio, televiziya, musiqi, rəssamlıq, idman, mühəndislik, memarlıq, arxitektura və elm sahələri üzrə Azərbaycan Respublikasındakı fəaliyyətlə bağlı edilən ödənişlər Əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeyri-maddi aktivlər, pul vəsaiti və torpaq mal sayılmır. [2, 13.2.16.17-1]

Həmçinin məqsədli kapitalın formalaşması üçün alınan pul vəsaitləri və eyni zamanda həmin kapitalın istifadəsindən alınan gəlir digər daxilolmaların (ianə, xeyriyyə ödəmələri, qrantlar, büdcə daxilolmaları və s.) passiv sərmayələşməsindən fərqli olaraq məqsədli daxilolmalar kateqoriyasına aid olaraq gəlirə görə vergi ödənilən bazanın müəyyən edilməsi zamanı nəzərə alınmayan gəlirlərə daxil edilir.

Beləliklə, məqsədli kapitalın formalaşması, ondan alınan gəlirlərin istifadəsi və idarə olunması bir tərəfdən Ali məktəbdə keyfiyyətli maarifləndirmə fəaliyyətini həyata keçirməyə, digər tərəfdən israfçılığa yol vermə hallarını məhdudlaşdırmağa imkan verir.

Nəticə

AM-lərin çoxsaylı problemləri: təhsilin keyfiyyətinin artırılması; peşəkar pedaqoji heyətin olması; sərt rəqabət şərtlərinə uyğunlaşma; elm ilə istehsalın qarşılıqlı əlaqəsinin təmin edilməsi; elmin inkişafında yeni texnika və texnologiyaların tətbiq edilməsi; müəssisənin fəaliyyətinə nəzarətin təmini və həmçinin maliyyə çatışmamazlığı ilə bağlı məsələlər və s. müəyyən ölçü götürülməsini tələb edir.

Maarifləndirici xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, biznes, cəmiyyət və təhsil müəssisəsi arasındakı qarşılıqlı əlaqələrin təmin olunması üçün Ali məktəblərin Himayədarlıq Şurasının yaradılması məqsədəuyğundur. Ali məktəbin nizamnaməsində Himayədarlıq Şurasının yaradılması, həmçinin müəssisənin maliyyə sabitliyinin təmin olunması məqsədilə - Məqsədli Kapital Fondunun formalaşdırılması nəzərdə tutula bilər.

Himayədarlıq Şurası AM-in fəaliyyətində bilavasitə iştirak edir, tələbələrin və dinləyicilərin hazırlanma keyfiyyətinə və kəmiyyətə nəzarət edir, beynəlxalq AM-lər də daxil olmaqla digər Ali təhsil müəssisələri ilə six əlaqələr yaradır, həmçinin büdcə və qeyri-büdcə vəsaitlərinin səmərəli və qənaətli istifadə olunmasına nəzarət edir.

Əlavə maliyyənin cəlb olunması məsələsi həm də Məqsədli Kapital Fondunun yaradılması və ona donor vəsaitlərinin cəlb olunması yolu ilə həyata keçirilə bilər. Məqsədli kapitalın formalaşması, ondan alman gəlirlərin istifadəsi və idarə olunması ali məktəbin keyfıyyətli fəaliyyətini həyata keçirməyə və israfçılığın qarşısını almağa imkan verir.

**Ədəbiyyat**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. 19 iyun 2009-cu il.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. (Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli 905-İQ saylı Qanunu ilə təsdiq edilmişdir).
3. Я.И.Кузьминов. Образование в России. Что мы можем сделать?// Вопросы образования. 2004. №1.

**И.Гурбанова**

**Пути привлечения дополнительных финансовых средств высшим учебным заведениям**

**Резюме**

Одной из основных целей ВУЗа в процессе деятельности является необходимость постоянного улучшения качества образования и в перспективе достижение уровня мировых стандартов.

Для обеспечения улучшения качества предоставляемых образовательных услуг и более тесного взаимодействия между бизнесом, обществом и образовательным учреждением пред- ставляется возможным создание Попечительского совета ВУЗа, а также в целях финансовой стабильности, формирование фонда целевого капитала.

В целом вложсния в человеческий капитал выгодны для всего общества, и чем качествен- нее будет система образования, тем больше будет отдача и бизнесу, и государству для роста конкурентоспособности в экономике.

**I.Gurbanova**

## Ways of the involving of the addition finance meanses to higher schools

### Summary

One of main purposes of the higher school in its activities always to increase the quality of the education and to reach the level of world standards.

Improve of the quality of the educational services, for provide of the mutual connections between business, society and educational institution it is possible creation of the sponsor council of the higher schools and forming of the fund of purposefully capital for finance stability of the establishment.

Completely, capital investment to human resource is useful for all society. If quality of the educational system is high, its will be useful to the state and business to raising competitive in the economy.

### Xülasə

Öz fəaliyyət prosesində ali məktəbin əsas məqsədlərindən biri təhsilin keyfıyyətini daima artırmaq və dünya standartları səviyyəsinə çatdırmaqdır.

Göstərilən təhsil xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, biznes, cəmiyyət və təhsil müəssisəsi arasındakı qarşılıqlı əlaqələrin təmin olunması üçün Ali məktəblərin Himayədarlıq Şurasının yaradılması, həmçinin müəssisənin maliyyə sabitliyi məqsədilə Məqsədli Kapital Fondunun formalaşdırılması mümkündür.

Bütövlükdə, insan resurslarına kapital qoyuluşu bütün cəmiyyət üçün faydalıdır və təhsil sisteminin keyfiyyəti nə qədər yüksək olarsa həm dövlətə, həm də biznesə iqtisadiyyatda rəqabətqabiliyyətliliyin artırılmasına xeyir verər.

**CAVİD İSMAYILOV**
**Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetitıin müəllimi**

# SAHİBKARLIĞIN FORMALAŞMASINA VƏ İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

**Açar sözlər**: sahibkarlıq, iqtisadi sistem, islahatlar, vergi sistemi, fəaliyyət, qanunvericilik, amillər, bazar iqtisadiyyatı
**Ключевые слова:** предпринимательство, экономическая система, реформы, налоговая система, деятелъностъ, законодателъство, фактор, рыночная экономика.
**Key wodrs**: factors, development, records, information, statements.

Giriş

Müstəqillik illərində Azərbaycanda həyata keçirilən səmərəli və uğurlu iqtisadi siyasət nəticəsində ölkədə dayanıqlı və sabit iqtisadi sistem formalaşmış, iqtisadiyyatın bütün sahələrində yüksək nailiyyətlər əldə edilmiş, özəl sektorun xüsusi çəkisi, sahibkarlığın rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Sahibkarğın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla, ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab olunur. Sahibkarlığın inkişafı üçün vacib olan olan qanunvericilik bazası yaradılmış, onların hüquqi və qanuni mənafelərinin müdafiəsini, sahibkalıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşməsini, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən müvafiq normativ hüquqi aktlar qəbul edilmişdir. Ölkəmizdə son onilliklərdə aparılan iqtisadi islahatlar sahibkarlığın formalaşmasına, onun iqtisadiyyatdakı rolunun daha da artmasına, sosial-iqtisadi problemlərin həllində fəal mövqe nümayiş etdirməsinə geniş imkanlar açmışdır.

Sahibkarlığın inkişafı və rəqabət mühütinin formalaşması

Sahibkarlığın inkişafı və rəqabət mühütinin formalaşması bazar iqtisadiyyatının əsas məsələlərindəndir. İqtisadiyyatın inkişafına yönəldilmiş tədbirlər kompleksində azad təsərrüfat subyektləri kimi müəssisələrin real müstəqilliyi və iqtisadi məsuliyyətinin yüksəldilməsi əsasında mövcud tələbə uyğun məhsul istehsalı həcminin artırılması ön planda durur. Azad rəqabətə əsaslanan sahibkarlığın təşəkkülü və inkişafı istehsalçıları öz fəaliyyətlərini istehlakçı hesabına deyil, keyfiyyətli məhsul istehsalı yolu ilə təmin etməyə istiqamətləndirir. Təsərrüfat mexanizminin yenidən qurulması ilə bağlı olan sahibkarlığın inkişafı mülkiyyətin daha səmərəli iqtisadi reallaşmasına imkan verəcəkdir. Nəticədə müəssisələr elə bir şəraitdə fəaliyyət göstərəcəklər

ki, onların rəqabətə dözümlülüyü və inkişafı məhsul istehsalı həcminin artırılmasından, onun satışının genişləndirilməsindən, istehsal xərclərinin aşağı salınmasından asılı olacaqdır.

Respublikamızda sahibkarlıq fəaliyyətinin inkişafının təkmilləşdirilməsi və stimullaşdırılması məsələlərinin həlli üçün sahibkarlıq münasibətlərinin nəzəri aspektlərini ümumiləşdirməklə, münasibətlərin təkmiləşdirilməsi nəticəsində cəmiyyətin inkişafının əsas amili hesab olunan milli sahibkarlığının formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu gün ölkə iqtisadiyyatı qarşısında duran ən mühüm vəzifə sahibkarlığın inkişafına nail olmaq üçün sahibkarlıq münasibətləri tədqiq edilməli və təkmilləşdirilməlidir. [3]

Sahibkarlıq fəaliyyətinin əsas subyekti olan sahibkar mənfəət əldə etmək və rəqabətdə qalib gəlmək üçün iqtisadi resurslardan səmərəli və qənaətlə istifadə əsasında günün tələblərinə cavab verən, rəqabətə davamlı və əhalinin ehtiyaclarını özündə dolğun əks etdirən məhsul istehsalının və xidmətlər göstərilməsinin təşkilinə çalışır. Bu isə məhsul və xidmətlər bolluğunu yaratmaqla daxili bazarın formalaşması və dolayı yolla dövlət büdcəsinin gəlir hissəsinin artmasına səbəb olur, əhalinin məşğulluğunun yüksəldilməsinə, həyat səviyyəsinin yaxşılaşdırılmasına və milli iqtisadiyyatın formalaşmasına zəmin yaradır. Bazar iqtisadiyyatının artıq ümumibəşəri dəyər kimi qəbul edildiyi bir dövrdə dövlətin qüdrəti onun iqtisadi inkişaf səviyyəsi ilə müəyyen edilir ki, bu məqsədin də reallaşmasının başlıca yolu sahibkarlığın inkişafı və yaranan müasibətlərin düzgün tənzimlənməsidir. Bazar mexanizminin hərəkətverici qüvvəsi olan sahibkarlıq münasibətlərinin tənzimlənməsi bazar iqtisadiyyatını bərqərar etməyə çalışan ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasının mühüm amilidir.

Azərbaycan Respublikası Konstitusiyasında ölkədə sahibkarlıq fəaliyyəti hüququ vətəndaşların konstitusional, fundamental hüquqlarının tərkib hissəsi kimi təsbit olunmuş, iqtisadi konstitusiya hesab olunan "Mülki Məcəllə"nin qəbul edilməsi respublikamızda sahibkarlıq fəaliyyətinin mülki əlaqələr sisteminin tərkib hissəsi kimi qanunvericilik bazasını formalaşdırmış və sahibkarlıq hüququnun gerçəkləşməsinin əməli fəaliyyət müstəvisinə gətirilməsi üçün qanunvericilikdə olduqca vacib fundamental yaratmışdır. Bu özünü sahibkarlıq strukturları, sahibkarlarla dövlət və dövlət strukturları arasında münasibətlərinin qanunvericilik bazasının formalaşmasında da göstərmişdir. Sahibkarlığın inkişafı üzrə qəbul edilmiş Dövlət Proqramları bu sahənin inkişafı istiqamətində tədbirlərin vahid strategiyasının həyata keçirilməsinə yönəldilmişdir.

Sahibkarlıq münasibətlərinin tənzimlənməsi sahəsində dövlət siyasətinin reallaşdırılması, bazarın tam formalaşdırılması bir sıra nəzəri, praktiki-təşkilati idarəetmə məsələlərinin həllinin zəruri etdiyindən sahibkarlıq fəaliyyətinin mahiyyətinin araşdırılması, onun yaranma mənbələrinin və onlara

təsir göstərən iqtisadi amillərin təhlili, habelə inkişafının təkmilləşdirilməsi məsələləri tədqiqat obyekti kimi mühüm əhəmiyyət kəsb edir. Respublikamızda sahibkarlıq münasibətlərinin təkmilləşdirilməsi yollarının və mövcud resurslardan səmərəli istifadə edilməsi istiqamətlərinin müəyyən edilməsi öncül məsələlərdən biridir. [4]

Ümumiyyətlə, sahibkarlığı iqtisadi kateqoriya, təsərrüfatçılıq metodu və iqtisadi təfəkkür tipi kimi istiqamətlərdə şərh etmək olar.

Sahibkarlığı iqtisadi kateqoriya kimi şərh edərkən ilk növbədə onun subyekt və obyektinin nıüəyyən edilməsidir. Sahibkarlığın subyekti ilk növbədə xüsusi şəxslərdir: fərdi istehsal və xidməti təşkil edənlər; ailə təsərrüfatçılığı təşkil edənlər; kollektiv təsərrüfatçılığı təşkil edənlər; iri və ya dövlət təsərrüfatçılığını təşkil edənlər.

Belə sahibkarlıq fəaliyyəti, ya şəxsi əməyə, ya da muzdlu əməyə əsaslanır. Sahibkarlıq fəaliyyəti həm də müqavilə və iqtisadi mənafeyleri baxımından əlaqəli olan insan qrupları tərəfindən həyata keçirilə bilər. Kollektiv sahibkarlığının subyekti, səhmdar cəmiyyətlər, icarədar kollektivlər, kooperativlər və s. ola bilər. Salıibkarlığın subyektinə daxil olan dövlət isə ayrı-ayrı müvafiq orqanları timsalında çıxış edir. Beləliklə də biz görürük ki, bazar iqtisadiyyatında sahibkarlıq fəaliyyəti üç formada fəaliyyət göstərir və təsərrüfatçılıqda özünəməxsus yer tutur: xüsusi sahibkarlıq; kollektiv sahibkarlıq; dövlət sahibkarlığı.

Sahibkarlığı təsərüfatçılıq metodu kimi xarakterizə edərkən qeyd etmək lazımdır ki, burada əsas yeri təsərrüfat subyektinin müstəqilliyi və asılı vəziyyətdə olması tutur. Daha doğrusu sahibkar fəaliyyət növünün seçimində hüquqi cəhətdən sərbəst olmalıdırlar. Sahibkarın timsalında həm yenilikçilik, həm hüquqi sərbəstlik, həm də iqtisadi azadlıq qarşılıqlı əlaqəli şəkildə birləşərək: sahibkarlıq fəaliyyəti növünün seçimində; istehsal proqramının müəyyenləşdirilməsində; maliyyə mənbələrinin seçilməsində; resursların əldə olunmasında; məhsulların satışında və qiymət qoyulmasında sərbəstlikdə; əldə olunan mənfəətə sərəncam verməsində və s. özünü əks etdirməlidir. [5]

Sahibkarlığın müstəqilliyi dedikdə o vəziyyət nəzərdə tutulur ki, ona rəhbərlik edən və ya göstəriş verən orqan yoxdur. Onun nə istehsal etməsini, necə istehsal etməsini, nə qədər, hansı qiymətə və kimin üçün istehsal etməsini göstərişlər deyil, bazar qaydaları müəyyən edir. Bazardakı oyun qaydaları, tələb və təklifin dinamikası, qiymət səviyyəsi, rəqabət mühiti, inhisarçı vəziyyət bilavasitə sahibkarlıq fəaliyyətinə təsir göstərir.

Sahibkarlıq fəaliyyətində müstəqilliklə yanaşı məsuliyyət daşımaq da xüsusi rol oynayır. Yəni, hər cür təsərrüfatçılıq qərarlarının qəbulunda sahibkar məsuliyyət daşıyır. Çünki, qərarların qəbulu qeyri-müəyyənliklər əsasında, risk etməklə əlaqədar olduğundan, sahibkar öz fəaliyyətinin nəticəsini hər dəfə

hesablamaq, düşünmək, vəziyyəti qiymətləndirmək, istiqamətində məsuliyyət daşıyır.

Sahibkarlığı iqtisadi təfəkkürün xüsusi tipi kimi xarakterizə edərkən ilk növbədə onun praktikada reallaşdıra biləcəyi original ideyalarının məcmusu başa düşülür. Daha doğrusu sahibkarın mövqeyindən, təşəbbüskarlığından, zirəkliyindən irəli gələn şəxsi fəallığı nəzərdə tutulur. Sahibkarlıq məşğuliyyət növü olmayıb, başqalarının görə bilmədiyi işi görə bilmək bacarığıdır.

Sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsinin mövcud vəziyyəti.

Sahibkarlığın hüquqi cəhətdən tənzimlənməsi iqtisadiyyatın çox vacib bu bölməsinin fəaliyyət göstərməsi və sosial iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün əlverişli şərait yaradılmasına yönəldilmişdir. Bununla əlaqədar olaraq kiçik və orta sahibkarlığın inkişaf meyillərini və bu sahədə hüquqi tənzimlənmə sistemini nəzərdən keçirmək lazımdır.

Sahibkarlıq istehsalın xüsusi innovasiya formasıdır. O, müəyyən tarixi və sosial-iqtisadi şəraitdə həlledici üstünlüyə malik olur və bütün ictimai təkrar istehsalın dinamik inkişafını təmin edir. Biznesin xüsusi növü olan sahibkarlığın məqsədi ümumiyyətlə mənfəət deyil, əlavə mənfəət, başqa sözlə, sahibkar gəliri əldə etməkdir.

Kiçik və orta sahibkarlığın hüquqi tənzimlənməsi dedikdə, onların səmərəli fəaliyyət göstərmələri və sabit inkişaf etdirilməsi üçün iqtisadi, hüquqi və təşkilati mühitin yaradılması nəzərdə tutulur. Bu sistemə respublika, region və yerli səviyyədə müxtəlif qanunverici, icraedici və məhkəmə hakimiyyəti strukturları daxildir.

Sahibkarlığa münasibətdə dövləti qarşısında aşağıdakı vəzifələr durur:

- iqtisadiyyatda rəqabət mühitinin qorunub saxlanması və inkişaf etdirilməsi. Yeni kiçik orta firmaların meydana gəlməsi üçün dövlət tərəfindən əlverişli şərait yaradıldıqca rəqabət, iqtisadiyyatın bütün seqmentlərinə bir o qədər sürətlə yayılmış olur;
- özəl biznes üçün məsuliyyəti üzərinə götürən hər bir təşəbbüskar şəxsin bu sahədə fəaliyyətinin bərabərşanslı olması;
- məşğulluq probleminin həllinə təsir göstərilməsi. Dinamik inkişaf edən kiçik və orta biznesdə əlavə iş yerlərinin yaradılması sosial sabitliyin, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin əsasıdır;

Bu ümumi məqsədlərlə yanaşı kiçik və orta sahibkarlığın xüsusiyyətləri ilə müəyyən olunan bir sıra xüsusi məqsədlərdə vardır ki, bunlar da aşağıdakılardan ibarətdir.

- kiçik və orta sahibkarlığın fəaliyyət göstərməsi üçün ümumi əlverişli şəraitin yaradılması. Bunlara kiçik və ya orta sahibkarların hüquqlarının müəyyən edilməsi, qeydiyyatdan keçirilməsi, lisenziya verilməsi, vergiyə cəlb olunması, hakimiyyət orqanları tərəfindən rəqabətdə onlara qarşı ayrıseçkililiyə yol verilməməsi, resurslardan bərabərhüquqlu subyekt kimi istifadə etmək

imkanlarının təmin olunması, xüsusi infrastrukturun yaradılması və qorunub saxlanması (kadrların hazırlanması, hüquqi xidmət göstərilməsi və s );

-yeni fəaliyyətə başlayan kiçik və orta müəssisələrin müdafiə olunması;

- regionlarda və sahələrdə aşağı inkişaf səviyyəsi ilə fərqlənən, yaxud da üzərinə ağır sosial yük düşən kiçik və orta biznesin müdafiə edilməsi;

- **kiçik və orta biznesin bazarda çətinliklə satın aldığı resursların onlar tərəfindən əldə edilməsinə şərait yaradılması (məsələn, kredit verilməsi, sahələrin icarəyə götürülməsi və s). [5]**

Müasir dövrdə sahibkarlığın müdafıəsi üçün istifadə olunan hüquqi tənzimlənmənin hamı tərəfindən qəbul olunan forma və metodları vardır. Lakin hər bir ölkənin spesfık xüsusiyyətlərindən, konkret tarixi amillərin müxtəlifliyindən asılı olaraq bu metodların tərkibi və strukturu dəyişə bilər.

Ümumiyyətlə, sahibkarlığın hüquqi cəhətdən müdafıə edilməsi mexanizminə aşağıdakılar daxildir:

Qanunvericilik və normativ hüquqi bazarın yaradılması, inzibati maneələrin aradan qaldırılması, sahibkarlığın kredit maliyyə və investisiya sahələrində müdafiə olunması, qanunazidd hallardan müdafiəsi və təhlükəsizliyinin təşkilində informasiya təminatının olması.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər üçün başlıca tələb onların hüquq qabiliyyətli olmasıdır, Bu zaman həm fiziki şəxslər, həm də hüquqi şəxslər öz hərəkətləri ilə mülki hüquqlar əldə edir, həyata keçirir, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətinə malik olurlar. Sahibkarlıq fəaliyyətinin subyektlərinin hüquq subyektliliyi dövlət tərəfindən tanınan sahibkarlıq sahəsində mövcud olan hüquq və vəzifələrə malik olmaq və onları şəxsən həyata keçirmək qabiliyyəti, eləcədə də sahibkarlıq sahəsində hüquq pozuntularına görə müstəqil surətdə hüquqi məsuliyyət daşınıq qabiliyyətidir.

Sahibkarlıq fəaliyyətinin elə növləri vardır ki, bu sahədə mütləq nəzərdə tutulmuş qaydada lisenziya, xüsusi icazə tələb edilir. Bu sahədə mövcud olan münasibətlər Azərbaycan Respublikası Prezidentinin "Xüsusi razılıq tələb olunan fəaliyyət növlərinin siyahısı haqqında" 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə tənzimlənir.

Fəliyyət qabiliyətli fiziki şəxslər isə sahibkarlıq fəaliyyəti ilə qanunvericilikdə müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs yaratmadan və ya təkbaşına, yaxud başqaları ilə birlikdə hüquqi şəxs yaratmaqla məşğul olurlar.

Mülki qanunvericiliyin demək olar ki, bütünprinsipləri sahibkarlıq fəaliyyətinin müstəqilliyinin təmininə yönəlmişdir. Belə ki, mülki hüquq subyektlərinin bərabərliyi, mülki hüquq subyektlərinin iradə sərbəstliyi, mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi, mülkiyyətin toxunulmazlığı, müqavilələr azadlığı, mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması, pozulmuş hüquqların bərpasının təmin edilməsi, mülki

hüquqlarını məhkəmə müdafiəsi prinsiplərinin hər biri bu və ya digər formada hüquqi və fiziki şəxslərin sahibkarlıq fəaliyyətini müstəqil surətdə həyata keçirilməsini təmin edır, mülki dövriyyədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsinin hüquqi tənzimlənmə mexanizmini müəyyənləşdirir və sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradır. [4]

Fiziki və hüquqi şəxslər mülki hüquqları öz mənafelərini gerçəkləşdirmək üçün iradələrinə uyğun olaraq əldə edir vəhəyata keçirirlər. Onlar müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər (MM-in 6-cı maddəsi).

Sahibkarlar öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikası qanunvericiliyinə əməl etməklə, istənilən müəssisələr yaratmaq, onların idarəetmə orqanlarında vəzifə tutmaq və bu orqanların işində iştirak etmək, dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakının, başqa əmlakı və əmlak hüquqlarını tamamilə və qismən əldə etmək, təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun istehsalçılarını seçmək, öz məhsulları üçün qiymətlər müəyyənləşdirmək, pul vəsaitinin saxlanması, hesblaşma, kredit və kassa əməliyyatlarının bütün növlərinin həyata keçirilməsi üçün banklarda hesablar açmaq, sahibkalıq fəaliyyətində əldə edilən mənfəətdən vergilər və digər icbari ödənişlərdən sonra onun qalan hissəsindən sərbəst istifadə etmək, məbləğinə məhdudiyyət qoyulmayan şəxsi gəlir əldə etmək, xarici iqtisadi münasibətlərdə iştirak etmək, valyuta əməliyyatarı aparmaq və "Saibkarlıq fəaliyyəti haqqında" Qanunun 6-cı maddəsində nəzərdə tutulmuş və sahibkarların müstəqilliyini təmin edən digər hüquqlara malikdirlər.

Lakin sahibkarların müstəqilliyini, fəaliyyət azadlığını, özbaşnalıq, hüquqlardan sui-istifadə kimi başa düşmək düzgün olmazdı. Belə ki, mülki qanunvericiliyin tələblərinə əsasən, fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxslərə ziyan vurmaq niyyətilə həyata keçirdikləri hərəkətlərə, habelə hüquqdan digər formada sui-istifadə edilməsinə yol verilmir.

Mülki hüquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədi ilə istifadə edilməsinə, habelə bazarda hakim mövqedən sui-istifadə olunmasına yol verilmir (MM-nin 16-cı maddəsi).

Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 22 aprel tarixli, 802 saylı qərarı ilə təsdiq edilmiş "Qanunvericilik sahələrinin ümumhüquqi təsnifatı"na əsasən müəyyənləşdirilmiş 45 qanunvericilik sahəsi içərisində "Müəssisələr və sahibkarlıq fəaliyyəti haqqında qanunvericiliyə" xüsusi təsnifat qrupu kimi ayrıca yer ayrılmışdır.

Həmin ümumhüquqi təsnifata əsasən sahibkarlıq fəaliyyətini tənzimləyən hüquq normaları aşağıdakı kimi sistemləşdirilmişdir:

- təsərrüfat fəaliyyəti subyektlərinin hüquqi vəziyyəti;

- təsərrüfat fəaliyyətinin qeydə alınması qaydası və təminatları, o cümlədən təşkili (yaranması), ləğvi, çevrilməsi, yenidən təşkili, müəssisə, təşkilat və idarələrin qeydiyyatı, müəssiəslərin dövlət reyestri, ayrı-ayrı fəaliyyət növlərinə lisenziya verilməsi;
- sahibkarlıq fəaliyyətinə dövlət yardımı, yardım fondları;
- sərbəst sahibkarlıq zonaları, sərbəst iqtisadi zonalar;
- kommersiya sirri;
- müəssisələrin və sahibkarların müflisləşməsi və iflası;
- nümayəndəliklər, fılıallar, agentliklər;
- müəssisələrin təşkilati-hüquqi formaları, o cümlədən dövlət müəssisələri, bələdiyyə müəssisələri, xüsusi müəssisələr və sahibkarlar, ortaqlıqlar və onların növləri, səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli ortaqlıqları, icarə müəssisələri, təsərrüfat birlikləri, xarici investisiyalı müəssisələr, birgə müəssisələr, xarici fırmalar, istehlak, istehsal və tıcarət kooperatıvləri;
- birjalar (əmtəə, fond).

Bütün bu sadaladığlarımızı ümumiləşdirərək sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi həyata keçirilməsində məqsəd ölkəmizdə sahibkarlıq fəaliyyətinin daha da siirətli inkişfına nail olmaq və sahibkarların büquq və mənafeylərinin qorunmasına xidmət etməkdən ibarətdir.

Vergi siyasəti və səmərəli vergi sisteminin formalaşdırılması

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkədə dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində geniş miqyaslı islahatlar aparılmışdır. Bu islahatlar içərisində vergi sisteminin inkişafı ilə bağlı görülən işlər diqqəti daha çox cəlb edir. Çünki SSRİ dövründə tamamilə başqa bir sistem fəaliyyət göstərirdi. Müstəqillik illərində isə vergi siyasəti və səmərəli vergi sisteminin formalaşdırılması, onun qanunvericilik bazasının təkmilləşdirilməsi, vergi orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, ölkədə əlverişli vergi mühitinin və vergi mədəniyyətinin yaradılması sahəsində əhəmiyyətli işlər görülmüşdür.

Öz suverenliyini əldə edən respublikamız qarşısında duran en mühüm vəzifələrdən biri Azərbaycanda vergi sisteminin təşəkkülü, onun sahibkarlığın formalaşmasına və inkişafına təsirinin artırılması, eləcə də sosial-iqtisadi inkişafıdır.

Müstəqillikdən keçən 24 il ərzində Azərbaycanda bu istiqamətdə xeyli uğurlu addımlar atılmışdır. Belə ki, bu müddətdə mühüm nailiyyətlər əldə olunmuşdur.

İqtisadi proseslərin idarə olunmasında, iqtisadi münasibətlərin formalaşmasında, xüsusilə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində vergi sistemi aparıcı yer tutur. Vergi sistemi dövlətin mövcudluğunun, onun təhlükəsizliyinin təmin edilməsinin, əhalinin sosial müdafiəsinin və dövlət

gəlirlərinin formalaşmasının əsasını təşkil edir. Çünki, bazar münasibətləri şəraitində iqtisadiyyatın tənzimlənməsi, dövlət büdcəsinin gəlirlərinin təmin edilməsi, sahibkarlıq fəaliyyətinin inkişafi məhz vergi sistemi vasitəsilə həyata keçirilir. Deməli vergi sistemi dövlət büdcəsinin gəlirlərinin formalaşmasının və bu əsasdan da dövlətin sosial-iqtisadi öhdəliklərinin başlıca mənbəyidir. Mövcud vergi sisteminin uğurlu inkişafi bir tərəfdən vergi orqanlarının işinin səmərəliliyinin yüksəldilməsindən, digər tərəfdən də verginin ödənilməsinin ölkənin sosial-iqtisadi inkişafında rolu və əhəmiyyətini dərk edən, vətəndaş məsuliyyəti olan müxtəlif vergi işçiləri və ödəyiciləri kateqoriyasının formalaşdırılmasından asılıdır. [6]

Bildiyimiz kimi, bazar münasibətlərinin tələblərinə cavab verən vergi xidmətinin yaradılması prosesinə keçən əsrin 90-cı illərinin əvvəllərindən başlanmışdır. Belə ki, vergi qanunvericiliyinə və qiymət intizamına riayət olunmasına dövlət nəzarətinin təmin edilməsi məqsədilə 1990-cı ilin iyul ayında Respublika Maliyyə Nazirliyinin tərkibində Vergi Müfəttişliyi yaradılmışdır. Bir müddət Maiiyyə Nazirliyinin orqanı kimi fəaliyyət göstərdikdən sonra 1991-ci ilin oktyabrında vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə dövlət vergi xidmətinin rolunun gücləndirilməsi, onun müstəqil fəaliyyətinin və nəzarət işlərinin obyektivliyinin təmin edilməsi məqsədi ilə bu xidmət Maliyyə Nazirliyinin tərkibindən çıxarılaraq müstəqil orqan olan Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi yaradılmış və bu qurum 2000-ci ilə qədər fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Prezidenti, ümummilli lider Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında Vergilər Nazirliyi yaradılmışdır. Hazırda bu nazirlik dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən vəbu sahədə dövlət nəzarətini həyata keçirən, həmçinin sahibkarlığın formalaşmasına vəinkişafına təsir göstərən mərkəzi icra hakimiyyəti orqanıdır.

Sahibkarlığın formalaşmasına və inkişafına təsir göstərən vergi sistemi ilə yanaşı Dövlət Gömrük Komitəsi, Dövlət Sosial Müdafiə Fondu da bəzi vergi və rüsumların yığılmasına cavabdehlik daşıyır. Bu orqanların fəaliyyəti vergi və gömrük qanunvericiliyinə söykənir və bunun əsasında da onların fəaliyyət prinsipləri müəyyən edilir. Vergi orqanlarının fəaliyyət prinsiplərinə: sistemin vahidliyi, stabilliyi, müstəqilliyi, operativliyi (çevikliyi), qanunun aliliyi, fəaliyyətdə məqsədyönlülük və s. daxildir. Sözsüz ki, bütün bunlar insan ornəyi, insanın bilik və bacarığı, öz peşəsinə və onun nəticələrinə cavabdehliyi ilə formalaşır və inkişaf edir.

Vergi orqanlarının və bu orqanlarda çalışan insanların əsas vəzifəsi və məqsədi vergi qanunvericiliyinə əməl olunmasına nəzarət etməkdir. Bunlara:

vergi ödəyicilərinin uçotu; vergi hüquq münasibətlərinin iştirakçıları tərəfindən qanunvericiliyə əməl olunmasına nəzarət; vergi ödəyicisi tərəfindən büdcəyə ödənilməli olan vergilərin məbləğinin müəyyən edilməsi; vergi məbləğinin mühasibat uçotunu aparmaq; vergi qanunvericiliyinin tətbiqi qaydaları haqqında vergi ödəyicilərini məlumatlandırmaq; vergi qanunvericiliyini pozan şəxslərə qarşı məsuliyyət tədbirləri görmək; vergi borclarını, cərimə və faizləri tələb etmək və s. bu kimi vəzifələr daxil edilir.

Yerli vergi orqanlarından fərqli olaraq Azərbaycan Respublikası Vergilər Nazirliyi aşağı vergi orqanlarının fəaliyyətinin təşkili, əlaqələndirmə və onlara nəzarət, analitik və statistik fəaliyyət, vergi qanunvericiliyinin tətbiqinə dair təlimat və metodiki göstərişlərin işlənib hazırlanması və nəşri, dövlətin vergi siyasətinin işlənib hazırlanmasında, vergiqoyulmaya dair qanunvericilik aktlarının, beynəlxalq müqavilələrin işlənib hazırlanmasında iştirak etmə, vergiqoyma sahəsində başqa dövlətlərlə əməkdaşlıq və s. kimi funksiyaları yerinə yetirir. [7]

Vergi sistemində inzibatçılığının modernləşdirilməsinin mühüm istiqamətlərindən biri də onun təşkilati strukturanın təkmilləşdirilməsidir. Hazırda dünyada gedən inkişaf və tənəzzül prosesləri vergi sistemində təşkilati-idarəetmə mexanizminin bu proseslərə uyğun həyata keçirilməsini tələb edir. Bunun üçün hər şeydən əvvəl cəmiyyətdə baş verən dəyişiklikləri duyan və buna müvafiq tədbirlər həyata keçirməyi bacaran kadrların olmasını tələb olunur. Bu dövrün tələblərinə uyğun büdcə-vergi siyasətinin həyata keçirilməsində vacib amildir. Çünki büdcə-vergi siyasətini istiqamətləndirən makroiqtisadi göstəricilər daha sürətli iqtisadi artımın əldə edilməsini, büdcəyə əlavə daxilolma mənbələrinin müəyyən edilməsini, iqtisadiyyatın tənzimlənməsində büdcənin birbaşa iştirakının və təsirinin artırılmasını, maliyyə intizamının gücləndirilməsi və şəffaflığının təmin edilməsini, yoxsulluğun azaldılmasını, ünvanlı sosial yardımın tətbiqinin təkmilləşdirilməsini, sahibkarlığın və regionların inkişafı üçün maliyyə imkanlarının yaradılmasını özündə əks etdirir.

Vergi sistemi iqtisadiyyatın tənzimlənməsində mühüm rol oynadığı kimi, investisiyaların təşviqi prosesinin də tərkib hissəsi kimi çıxış edir. Bazar iqtisadiyyatına və bununla əlaqədar yeni istehsal mülkiyyət münasibətlərinə keçid şəraitində iqtisadi təhsilin tərkib hissəsi olan vergi təhsilinin əhəmiyyəti durmadan artır. Bu günün reallıqları əhalinin vergi təhsilinin bu və ya digər forması ilə əhatə olunmasmı, omm vergi savadının artırılmasını, vergi məsələləri üzrə maarifləndirilməsini, əhalidə vergi mədəniyyətinin, təfəkkürünün formalaşmasını labüd edir. Digər amil peşəkar kadr resurslarına tələbin durmadan artması ixtisasa və müxtəlif kateqoriyalı mütəxəssislərə tələbin dəyişməsi vergi sisteminin özünün inkişafı ilə nəticələnir. [6]

Sahibkarlığın formalaşmasına və inkişafına təsir göstərən vergi sistemində son illərdə təşkilati-idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində təqdirəlayiq işlər görülmüşdiir.

Artıq Azərbaycanda iqtisadiyyatın güclü inkişafı prosesinin baş verməsi, ümmumi daxili məhsulda ciddi artımın olması kimi müsbət irəliləyişləri kiçik və orta sahibkarlığın nəticəsi hesab etmək olar. Respublikamızda bazar iqtisadiyyatı möhkəmləndikcə sahibkarlığın məzmununda, strukturunda və tələblərində əsaslı dəyişikliklər baş verir və yeni meyillər əmələ gəlir. Müstəqilliyin ilk illərində respublikamızda sahibkarlıq fəaliyyəti kiçik sahibkarlıq formasında qərarlaşmışdırsa, hazırda onun daha mürəkkəb və geniş formaları meydana gəlmişdir. Xüsusilə, respublikamızda sahibkarlıq fəaliyyətinin genişlənməsi "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunun əsasında nizamlanır. Deməli, bu qanun Azərbaycanda 1990-cı ildən sonra salıibkarlıq fəaliyyətinə geniş şərait yaradan və ona hüquqi baza təminatı verən bir sənəddir. Eyni zamanda bu qanunun qəbul edilməsi dövrünü respublikamızda sahibkarlığın inkişafının ikinci mərhələsi hesab etmək olar.

**Nəticə**

Azərbaycanda "Sahibkarlıq fəaliyyəti haqqında" qanunun tələblərinə və prinsiplərinə uyğun olaraq mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər müxtəlif fəaliyyət növləri ilə məşğul ola bilərlər. Artıq sahibkarlıq fəaliyyətini müdafiyə edən və ona hüquqi baza yaradan möhkəm qanunlar paketi qəbul edilmişdir.

İstənilən halda vergi sisteminin sivil qaydada inkişafı sahibkarlığın formalaşmasına və inkişafına əsaslı şəkildə təsir göstərən mühüm amildir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2013-cü il yanvarın 15-dək edilmiş əlavə və dəyişikliklərlə. Bakı, "Hüquq ədəbiyyatı", 2013, 308 s.
2. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycanda kiçik sahibkarlıq. Statistik məcmuə. DSK, Bakı, 2009.
3. Allahverdiyev H., Qafarov K., Əhmədov Ə. iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, "Nasir", 2002, s. 447.
4. Xankişiyev A. Büdcə - vergi siyasəti. Bakı, MBM, 2010, 84 s.
5. Musayev A. F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı, "Elm", 2004, 792 s.
6. www.economy.gov.az

**Д.Исмаилов**

**Факторы, влияющие на формирование и развитие предпринимательства**

**Резюме**

В статье показывается, что развитие предпринимательства является одним из основных направлений экономической политики Азербайджанского Государства.

Этот фактор имеет особое значение в решении экономических и социальных проблем.

На развитие предпринимательства оказывает серьезное влияние создание выгодной налоговой сферы, налоговая политика и совершенствование его законодательной базы. В статье последовательно даны связанные с этим задачи.

**J.Istnayilov**

**Financial statemends identification forms, financial statemends, composition, balance sheet, the information to be presented in the balance sheet**

**Summary**

**Xülasə**

Məqalədə göstərilir ki, sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. İqtisadi və sosial problemlərin həllində də bu amil mühüm əhəmiyyət kəsb edir.

Sahibkarlığın inkişafına isə vergi siyasəti və onun qanunvericilik bazasının təkmilləşdirilməsi, əlverişli vergi mühitinin yaradılması ciddi təsir göstərir. Məqalədə bununla bağlı məsələlər nəzərə çatdırılmışdır,

**RAMİL ƏLİYEV**
**AMEA-nın İqtisadiyyat İnstitutunun böyük elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru**

# İSTEHSAL SAHİBKARLIĞININ İNNOVASİYA TƏMİNATI

**Açar sözlər:** istehsal sahibkarlığı, amillər, innovasiya, təşkil, təminat, metodlar, idarəetmə, tənzimləmə.
**Ключевые слова:** производственное предпринимательство, факторы, инновация, организация, обеспечеиие, методы, управление, регулировапие.
**Key words**: industrial entrepreneurship, factors, innovation, organization, software, methods, management, regulation.

Giriş

Sahibkarlıq fəaliyyətinin əsas, aparıcı növü istehsal sahibkarlığıdır. İstehsal sahibkarlığı əsasən yeni maddi dəyərlər yaradılması ilə bağlıdır. Sahibkarlığın inkişaf tarixinin təhlili göstərir ki, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi bir çox amillərdən asılıdır və bu fəaliyyətin formalaşması aşağıdakı elementlərin mövcudluğunu tələb edir:

- sahibkarın özünün;
- sahibkarlıq ideyasının, hər hansı bir (bir neçə) sahibkarlıq ııövü ilə məşğul olmaq istəyinin;
- ilkin kapital yığımının;
- sahibkarlıq fəaliyyəti növünə (növlərinə) uyğun texnika və texnologiyanın, texniki elementlərin, xammal, material və müvafıq işçi qüvvəsinin [1, s. 8-9].

Qeyd edilən elementlərin mövcudluğu sahıbkarlıq fəaliyyətinin, eləcə də onun bır növü olan istehsal sahibkarlığının formalaşmasının ilkin şərtləridir. Bunlarla yanaşı, sahibkarlıq fəaliyyətinin, xüsusilə də istehsal sahibkarlığının uzun müddət sabit, səmərəli fəaliyyət göstərməsi, rəqabət mübarizəsində qalib gəlməsi fəaliyyət sahəsinə aid yeniliklərin - innovasiyanın - mütəmadi olaraq tətbiq edilməsini tələb edir.

*İstehsal sahibkarlığının innovasiya təminatının mahiyyəti və mərhələləri*

innovasiya- yeni texnoloji ideyaların, təkliflərin, elmi-texniki qərarların praktiki tətbiq edilməsi və həyata keçirilməsidir.

Təbiidir ki, innovasiyanın tətbiq edilməsi istehsalla bilavasitə məşğul olan sahibkardan asılıdır. Y.Şumpeter qeyd edirdi ki, "Sahibkarların vəzifəsi-ixtiraların tətbiq edilməsi yolu ilə istehsal üsullarının islahatını aparmaqdan

və inqilabiləşdirməkdən, daha geniş mənada isə-yeni xammal mənbələri və ya yeni hazır məhsulların yeni bazarlarını kəşf etməklə - əvvəl mövcud olan sənaye sahəsini yenidən qurmağa və yenisini yaratmağa qədər-yeni texnologiyalardan istifadə edərək yeni növ əmtəələri, yaxud, əvvəlki əmtəələri yeni metodlarla istehsal etməkdən ibarətdir." [5, s. 51]

İnnovasiyanın istehsala tətbiqi bir neçə mərhələ üzrə həyata keçirilə bilər. Hər bir konkret halda ən semərəli yol seçilməli və bu zaman texnologiyanın xarakteri, satış bazarlarının mövcud vəziyyəti, müəssisənin, fırmanın potensialı, mövcud iqtisadi mühit nəzərə alınmalıdır.

Qabaqcıl müəssisələrin təcrübəsi göstərir ki, innovasiya prosesini aşağıdakı mərhələlər üzrə həyata keçirmək məqsədəuyğundur.

İlk olaraq innovasiyanın tətbiq edilməsinə dair daxil olmuş ideyalar sistemləşdirilməlidir. Bu ideyalar bazardakı texnoloji dəyişikliklər haqqında müəssisənin elmi-texniki bölməsindən, istehsal şöbələrinin marketinq xidmətindən, satış aparatından, ticarət vasitəçilərindən, son istehlakçılardan daxil ola bilər. Bunlarla yanaşı, yeni məhsulun işlənib hazırlanması və mənimsənilməsi, meydana çıxa biləcək riskin dərəcəsi və ölçüsünün müəyyənləşdirilməsi, yeni məhsul istehsalının həyata keçirilməsi üçün müəssisənin potensial imkanları, məqsədli bazarlar və onların inkişafının uzun müddətli meylləri haqqında da informasiya toplanmalıdır.

İkinci mərhələdə ideyaların imkanları və praktiki olaraq reallaşdırılmasının mümkünlüyü müəyyən edilməli, yeni və ənənəvi əmtəələrin texnoloji ümumilik dərəcəsi aydınlaşdırılmalı, yeni məhsulun müəssisənin imicinə və strateji inkişafına uyğunluğu müəyyənləşdirilməli, müvafiq ideyalar seçilməli və yeni məhsul ideyası işlənib hazırlanmalıdır.

Bundan sonra yeni məhsulun iqtisadi səmərəliliyi təhlil edilməli və bu məqsədlə müəssisənin marketinq proqramı işlənib hazırlanmalıdır. Marketinq proqramı aşağıdakıları əhatə etməlidir:

-ideyanın konkret layihə şəklini aldığı halda məhsulun texniki cəhətinin işlənib hazırlanmasını;

- məhsulun texniki-iqtisadi xarakteristikasının müəyyən edilməsini, onun keyfıyyət və istehlak xüsusiyyətlərinin qiymətləndirilməsini;
- potensial bazar tələbatının və satışın həcminin qiymətləndirilməsini;
- yeni məhsulun yaradılmasına və mənimsənilməsinə sərf edilən investisiyaların (texnologiyanın, maşın və avadanlıqların, xammal və materiallarm alınmasına, kadr heyətinin saxlanmasına və s. çəkiləcək xərclərin) və onların ödənilmə müddətinin müəyyən edilməsini;
- yeni məhsulun mənimsənilməsi və onun bazara çıxması müddətinin müəyyən edilməsini;
- yeni məhsul istehsalının rentabelliyinin qiymətləndirilməsini.

İnnovasiyanın tətbiq edilməsinə və yeni məhsul yaradılmasına dair konkret qərar qəbul edildikdən sonra aşağıdakı işlər həyata keçirilməlidir:

- müəssisənin müvafiq bölmələri üzrə vəzifələr bölüşdürülməli, yeni məhsulun konkret inkişaf proqamı işlənib hazırlanmalıdır;
- yeni məhsulun nümunəsi yaradılmalı və texniki sınağı keçirilməlidir;
- məhsulun adı müəyyənləşdirilməli, onun əmtəə nişanı tərtib edilməli, qablaşdırılması, markalaşdırılması müəyyən edilməlidir.

İnnovasiyanın tətbiq edilməsinin əsas şərtlərindən biri yeni istehsal ediləcək məhsulun reallaşdırılması imkanlarının müəyyən edilməsindən ibarətdir. Ona görə də sonrakı mərhələdə:

- yeni məhsulun ilkin qiyməti və digər kommersiya şərtləri müəyyənləşdirilməli;
- optimal satış kanalları seçilməli;
- reklam vasitələri və metodları seçilməli;
- servis xidməti təşkil edilməlidir.

Yeni məhsulun bazarda uğur qazanacağı halda- axırıncı mərhələdə - onun seriyalı və ya kütləvi istehsalı haqqında qərar qəbul edilə bilər. Bu mərhələdə aşağıdakılar müəyyən edilməlidir:

- müəssisənin maliyyə imkanları: seriyalı və ya kütləvi istehsala və satışa sərf ediləcək maliyyənin ümumi məbləği, maliyyələşdirmənin mənbələri;
- istehsalın və satışın həcmi, məhsulun rentabelliyi;
- tələb və tələbatın ödənilməsi səviyyəsi;
- satış kanalları və metodları;
- müəssisənin bazardakı seqmenti və imici;
- müəssisənin alıcılar və istehlakçılarla olan əlaqələrinin sabitlik dərəcəsi;
- müəssisənin istehsal potensialı: mövcud güclərdən istifadə edilməsi imkanları, resurslarla, ixtisaslı heyətlə təmin olunma səviyyəsi;
- yeni məhsulun normativ göstəricilərə - standartlara, ölkədə məhsul satılmasını nəzərdə tutan dövlət normalarına uyğunluğu;
- yeniliyin patent müdafiəsinin təmin edilməsi.

İnnovasiyanın növləri və yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsi metodları

İstehsal sahibkarlığının inkişafı qarşısında duran məqsədlərdən və sahibkarın maliyyə imkanlarından asılı olaraq innovasiya fəaliyyətinin beş növünə rast gəlinir:

Birinci, böyük innovasiya. Böyük innovasiyanın tətbiqi istehsal prosesində inqilabi yeniliklərin həyata keçirilməsinə şərait yaradır, istehsalın strukturunun, idarəetmənin və iqtisadi inkişafın sürətini kökündən dəyişir.

İkinci, radikal innovasiya. Radikal innovasiya yeni elmi ideyalar və ixtiralarla nəticələnir ki, bunların da əsasında texnoloji sistemlərin keyfiyyətinin kökündən dəyişdirilməsi və yeni istehsal sahələrinin yaradılması mümkün olur.

Üçüncü, prinsipial innovasiya. Prinsipial innovasiya əhəmiyyətli ixtiralar və elmi-texniki təkliflərlə nəticələnir və onların bazasında texnikanın yenisi ilə əvəz edilməsi şərti ilə yeni texnologiya yaranır.

Dördüncü, təkmilləşdirilmiş innovasiya. Təkmilləşdirilmiş innovasiya mövcud texnologiyanın, obyektlərin, məhsulun və texnikanın təkmilləşdirilməsinə, modernləşdirilməsinə imkan yaradır.

Beşinci, sadə innovasiya. Sadə innovasiyanın tətbiqi nəticəsində istehsalda istifadə edilən texnika və texnologiyanın texniki-iqtisadi parametrlərinin bir müddət saxlanmasına nail olunur.

İnnovasiyanın qeyd edilən növlərinin fərqli xüsusiyyətləri olsa da, onların istehsala tətbiq edilməsi elm ve texnikadan müəyyən dərəcədə istifadə edilməsinə, yeni texnologiyanın tətbiqinə, məhsulun keyfiyyətinin yüksəldilməsinə, yaradıcılıq axtarışlarına və yeniliklərə, idarəetmədə yeni mütərəqqi formaların tətbiqi əsasında istehlakçıların tələbatının ödənilməsinə və beləliklə də, iqtisadi artımın əldə edilməsinə imkan yaradır. innovasiya yeni ideyaların yaradılması və tətbiqi hesabına müəssisənin iqtisadi və ya sosial potensialında məzmunlu, məqsədyönlü dəyişikliklər həyata keçirmək cəhdidir. İnnovasiyanı mövcud uyğunsuzluqların, məhsullara vəproseslərə tələbatın, ayrıca sahədə və bütövlükdə bazarda dəyişikliklərin və yeni biliklərin nəticəsi kimi də xarakterizə etmək olar.

Təbiidir ki, innovasiyanın istehsala tətbiqində əsas məqsəd yeni məhsul istehsal etmək və ya mövcud məhsulun keyfiyyətini yüksəltməklə sahibkarlıq strukturunun mənfəətini artırmaqdan ibarətdir. Ona görə də, istehsalı nəzərdə tutulan yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsi vacib məsələlərdən biridir. Təcrübədə yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsinin aşağıdakı metodlarından istifadə edilir:

- ekspert metodu. Bu metod yeni ınəhsulun səmərəliliyi haqqında ekspert qiymətləndirilməsinə əsaslanır. Təbiidir ki, belə qiymətləndirmə üçün onu həyata keçirən şəxs müvafiq bilik və təcrübəyə malik olmalıdır;
- gözlənilən mənfəət normasının müəyyən edilməsi;
- ehtimal yanaşma.

Bu metod yeni məhsulun iqtisadi səmərəliliyinin mühəndis-iqtisadi hesablamalarla müəyyən edilməsinin qeyri-mümkünlüyü halında tətbiq edilir;

- gözlənilən mənfəətin dinamikasının qiymətləndirilməsi;
- çoxölçülü qiymət meyarı.

Bu metodun tətbiqi sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi sahənin cazibədarlığını, ona rəqiblərin nüfuz etmə imkanlarını, sahənin rəqabət

qabiliyyətinə yeni məhsulun və bütövlükdə müəssisənin təsirini, istehsal edilən əmtəələrin təkmilləşdirilməsi üçün işlənib hazırlanmış layihələrdən isitifadə edilməsi imkanlarını, yeni məhsulların istehsalı və satışının müəssisənin maliyyə vəziyyətinə təsirini qiymətləndirməyə imkan verir.

Yeni məhsulun istehsala hazırlanması prosesində artıq vəsait və vaxt sərf edilməməsi üçün səmərəsiz ideyalardan ilkin mərhələdəcə yaxa qurtarmaq lazımdır. Yeni məhsulların hazırlanması, tətbiq edilməsi və istehsalatda sınaqdan çıxarılması müəssisənin rəqabət qabiliyyətini və mənfəətini artırmaq vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, müasir dövrdə məhsulların yeniləşdirilməsi son dərəcədə yüksək templo gedir. İstehsalatda innovasiyanın tətbiq edilməsi müəssisənin bu prosesdən kənarda qalmamasına şərait yaradır.

İnnovasiyanın istehsala tətbiq edilməsində müəssisənin müxtəlif struktur bölmələrinin iştirak dərəcəsi onun fəaliyyət sferası və istehsal etdiyi məhsulun xarakteri ilə müəyyən edilir. Beynəlxalq təcrübədə istehlak əmtəələri istehsal olunan müəssisələrdə yeni məhsullara münasibətdə müəssisənin siyasətinin müəyyən edilməsində başlıca rol marketinq üzrə mütəxəssislərə ayrılır. İstehsal təyinatlı məhsullar istehsalı üzrə ixtisaslaşan müəssisələrdə isə innovasiya siyasətinin müəyyən edilməsində elmi-texniki və layihə-konstruktor bölmələri daha mühüm əhəmiyyət kəsb edir.

Adətən yeni məhsulun istehsalı məqsədi ilə innovasiyanın tətbiq edilməsi təşəbbüsünün marketinq fəaliyyəti üzrə mütəxəssisdən daxil olması marketinq tədqiqatlarının nəticələrinə əsaslanır. Belə ki, marketinq tədqiqatları nəticəsində bazardakı tələb və təklif haqqında, bazara analoji məhsullar çıxaran rəqiblər haqqında, müəssisənin texnoloji tələbatları və imkanları haqqında informasiyalar əldə edilir.

Yeni məhsulların işlənib hazırlanması ideyası müəssisənin elmi-texniki və layihə-konstruktor bölməsindən daxil olursa, bu, yeni ideyaların toplanması və yığılması üzrə məqsədyönlü tədqiqatlar aparılmasının, hər hansı bir konkret ideya və perspektivli məhsul haqqında daxil olan informasiyanın müntəzəm olaraq öyrənilməsinin, bu sahədə tədqiqatlar aparılmasının nəticəsi kimi qəbul edilməlidir.

İnnovasiya prosesinin idarə edilməsi və tənzimlənməsi

İnnovasiyanın gözlənilən iqtisadi səmərəliliyinin təmin edilməsi üçün onun istehsala tətbiq edilməsi prosesi ciddi şəkildə təşkil və idarə edilməlidir. İnnovasiya prosesinin təşkili və idarə edilməsi məzmunca aşağıdakı məsələləri əhatə etməlidir:

- yeni məhsulların istehsalı üzrə fəaliyyətin təşkilini və proqnozlaşdırılmasını;
- yeni məhsulların istehsalı üçün materialların, resursların seçilməsini;

- yeni məhsullar üzrə xərclərin, istehsalın həcminin müəyyənləşdirilməsini;
- yeni məhsulların satışının nəzərdə tululduğu bazarının tədqiqini;
- yeni məhsulların bazar tutumunun müəyyən edilməsini;
- yeni məhsulların satış formalarının təşkilini (vasitəçilərin, sifarişçilərin seçilməsini, pərakəndə, topdansatış ticarəti və s.);
- satış qiymətlərinin kompleks təhlilini, satış qiymətinin son həddinin müəyyənləşdirilməsini.

İnnovasiya prosesinin idarə edilməsi aşağıdakı fəaliyyət növlərilə bilavasitə bağlı olur:

- beynəlxalq miqyasda və ölkə daxilində meydana çıxan yeni ideyaların, texnologiyaların, yeniliklər haqqında informasiyaların toplanması, öyrənilməsi və sistemləşdirilməsilə;
- aşkara çıxarılmış yeni ideyaların seçilməsi, onların həyata keçirilməsinin mümkünlüyünün müəyyən edilməsilə;
- yeni məhsula potensial bazar tələbatının öyrənilməsilə (uzunmüddətli mal ala biləcək tərəfdaşların müəyyən edilməsilə);
- yeni məhsulun istehsalı prosesinin təşkil edilməsilə;
- innovasiya prosesinin idarə edilməsinin təşkilati formalarının təkmilləşdirilməsilə;
- yeni məhsulun istehsalatda tətbiqi haqqında qərarın qəbul edilməsilə.

Bütövlükdə müəssisə miqyasında yeni ideyaları irəli sürmək, onları nəzarətdə saxlamaq və alınmış nəticələri qiymətləndirmək innovasiya prosesinin idarə olunmasının əsas məqsədidir. İnnovasiyaların idarə olunmasının əsasında yenilikçilərin, ixtiraçıların və müəssisənin fəaliyyətinin nəticələri üçün məsuliyyət daşıyanların mütəmadi əməkdaşlığı dayanır. İnnovasiya prosesinin idarə edilməsi ilə məşğul olan menecerlər yaradıcılıq proseslərinin səmərəli idarə olunması üçün ona mane olan halları tapmalı və aradan qaldırmalı, motivasiyanı təmin etməli, müəssisədə şəxsi və qrup innovasiya təşəbbüskarlığını dəstəkləyəcək münasibətləri formalaşdırmalıdır. Ancaq nəzərə almaq lazımdır ki, yalnız uzunmüddətli perspektivdə yaradıcı işçilər və onların fəaliyyətinin nəticələri qiymətləndirilə bilər. Ona görə də, innovasiya fəaliyyətini idarə edən menecerlər sərt, müfəssəl nəzarətə bel bağlamamalıdırlar. Təkrarlanan əməliyyatlar üçün tətbiq edilə bilən metodlar yaradıcılıq fəaliyyətinə nəzarət zamanı tamamilə qeyri-adekvat ola bilər. İnnovasiya prosesinin həyata keçirilməsinə nəzarətin mahiyyətini bu prinsiplə ifadə etmək olar - yaradıcılığa kömək göstərin, ona mane olan hər şeyi aradan qaldırın.

İnkişaf etmiş ölkələrin qabaqcıl müəssisələrinin, şirkətlərinin təcrübəsi göstərir ki, innovasiya fəaliyyəti bir qayda olaraq yüksək risklə bağlıdır. Ona görə də bir çox sahibkarlar innovasiyaların istehsalata tətbiqində tərəddüd

edirlər. Bu isə bütövlükdə ölkə iqtisadiyyatının inkişafının ləngiməsinə səbəb olur. Ona görə də innovasiyaların istehsalata tətbiq edilməsi prosesinin dövlət tənzimlənməsinə ehtiyac vardır. Dövlətin tənzimləmə mexanizmi bazar iqtisadiyyatı şəraitinə uyğunlaşa bilən innovasiya biznesinin yaranmasının stimullaşdırılmasını, istehsalın yenidən qurulması vo elmi təşkilatların fəaliyyət istiqamətlərinin məqsədyönlü, adekvat dəyişilməsini və elmi-texniki kompleksin təşkilati strukturunun yenidən qurulmasını əhatə etməlidir. Bunlarla yanaşı, innovasiyaların istehsalata tətbiq edilməsi prosesinin dövlət tənzimlənməsi mexanizmi, eləcə də, aşağıdakıları nəzərdə tutmalıdır:

- innovasiyaların tətbiqi üçün ölkədə əlverişli iqtisadi şəraitin yaradılmasını, maliyyə vəsaitlərinin istehsalata cəlb edilməsi prosesinin stimullaşdırılmasını təmin edən əlverişli maliyyə-kredit siyasətinin yeridilməsini;
- istehsal sahibkarlığı sferasında rəqabəti təmin edən qanunvericilik sisteminin yaradılmasını;
- istehsal sahibkarlığı ilə məşğul olan təsərrüfat strukturlarının istehsal etdiyi yeni məhsullara dövlət sifarişləri sisteminin formalaşdırılmasını və bunun üçün məqsədli maliyyələşdirmənin tətbiqini;
- istehsal sahibkarlığı ilə məşğul olan təsərrüfat strakturları ilə elmi təşkilatların kooperasiyasının dəstəklənməsini;
- innovasiya fəaliyyətinə şərait yaradan investisiya iqliminin formalaşdırılmasını;
- innovasiyanı istehsalata tətbiq edən təsərrüfat subyektlərinə güzəştli kreditlərin verilməsi mexanizminin işlənib hazırlanmasını;
- elmi, elmi-texniki və innovasiya fəaliyyəti ilə məşğul olan müəssisələr şəbəkəsinin yaradılmasının stimullaşdırılmasını;
- innovasiyanı istehsalata tətbiq edən sahibkarlıq strukturlarının dövlət tərəfindən hüquqi qorunmasını və dəstəklənməsini;
- innovasiya prosesini həyata keçirən və istehsalla məşğul olan sahibkarlıq strukturlarına dövlət tərəfindən vergi, kredit, gömrük, amortizasiya, icarə güzəştlərinin verilməsini;
- innovasiya fəaliyyəti ilə məşğul olmaq istəyən sahibkarlıq strukturlarının dövlət tərəfindən zəruri informasiya ilə təmin edilməsini;
- yeni məhsulların sertifikasiyası, onların reklamı ilə bağlı işlərin aparılmasında sahibkarlara dövlət tərəfindən kömək göstərilməsini və s.

Nəticə

Bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının inkişafı xeyli dərəcədə istehsal sahibkarlığının inkişafi ilə bağlıdır. Əmtəə bazarlarının istənilən məhsulla dolu olduğu indiki şəraitdə istehsal sahibkarlığı ilə məşğul olan təsərrüfat strukturları yalnız mütəmadi olaraq innovasiyanı istehsala tətbiq etməklə sabit, səmərəli fəaliyyət göstərə, rəqabət mübarizəsində qalib gələ və ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verə bilər. Məhz buna

görə də müasir şəraitdə istehsal sahibkarlığının innovasiya təminatı ölkə iqtisadiyyatının inkişafının zəruri şərtinə çevrilmişdir.

İnkişaf etmiş ölkələrin qabaqcıl müəssisələrinin, şirkətlərinin təcrübəsi göstərir ki, innovasiya fəaliyyəti bir qayda olaraq yüksək risklə bağlıdır. Ona görə də bir çox sahibkarlar innovasiyaların istehsalata tətbiqində tərəddüd edirlər. Bu sahədə sahibkarların tərəddüdlərinin aradan qaldırılması, innovasiyaların istehsala tətbiq edilməsində sahibkarlıq strukturlarının maraqlarının təmin edilməsi üçün milli innovasiya sisteminin yaradılmasına və inkişafına nail olmaq lazımdır. Ancaq nəzərə alınmalıdır ki, milli innovasiya sisteminin yaranması və formalaşmasına mane olan bir sıra amillər də vardır ki, onları da aradan qaldırmadan bu sistemin yaranması mümkün deyil. Bu amillərdən biri innovasiya fəaliyyətinə dövlət dəstəyinin son dərəcə zəifliyidir. Bu amilin aradan qaldırılması üçün innovasiya fəaliyyəti dövlət tərəfindən dəstəklənməli və tənzimlənməlidir.

Ədəbiyyat


1. Əliyev T.Q. İstehsal sahibkarlığının inkişafının sosial-iqtisadi problemləri. Bakı, "Elm", 2007.
2. Горфинкель М.Я. Предпринимательство. М.: ЮНИТИ, 2009.
3. Журавлев П.В. и др. Экономика предприятия и предпринимательской деятельности. М.: Экзамен, 2008.
4. Лапуста М.Г. Предпринимательство. М.: Инфра, 2008.
5. Шумиетер Й. Теория экономического развития. М.: Прогресс, 1982.


**Р.Алиев**

## Инновационное обеспечение производственного предпринимательства

### Резюме

В статье рассматриваются факторы, влияющие на формирование предпринимательства, сущность и этапы инновационного обеспечения производственного предпринимательства, виды инновации и методы оценки эффективности нового продукта, механизм управления и регулирования инновационного процесса. В статье также приводятся соответствующие выводы о необходимоети инновационного обеспечения производственного предпринимателъства для развития экономики страны.

**R.Aliyev**

## Innovative maintenance of productive entrepreneurship

## Summary

The article discusses the factors influencing the formation of entrepreneurship spirit and innovative steps to ensure productive entrepreneurship, innovation types and methods of evaluating the effectiveness of a new product, the mechanism of control and regulation of the innovation process. The article also provides the appropriate conclusions o the need to provide innovative industrial business for the economic development of the country.

## Xülasə

Məqalədə sahibkarlığın formalaşmasına təsir edən amillər, istehsal sahibkarlığının innovasiya təminatının mahiyyəti və mərhələləri, innovasiyanın növləri və yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsi metodları, innovasiya prosesinin idarə edilməsi və tənzimlənməsi mexanizmi şərh edilir. Məqalədə həmçinin ölkə iqtisadiyyatının inkişafı üçün istehsal sahibkarlığının innovasiya təminatının həyata keçirilməsinin zəruriliyi barədə müvafiq nəticələr çıxarılır.

**FİRİŞ ŞƏKƏRƏ**
**AMEA-nın İqtisadiyyat İnstitutunun**

# AUDİTİN İCTİMAİ-İQTİSADİ HƏYATDAKI İNKİŞAFININ MÜASİR TƏLƏBLƏR BAXIMINDAN TƏHLİLİ

**Açar sözlər**: audit, ictimai-iqtisadi inkişaf, nəzəri-konseptual baxışlar, elmi və in fəaliyyət, idarəetmə sistemi.
**Ключевые слова:** аудит, общественная - экономическая развитие, научные - концептуалъные взгляды, научная и интеллектуалъное деятельность, организационная система.

## Giriş

Müasir dünya iqtisadiyyatınm güclənməsi, qlobal proseslərin dərinləşməsi cəmiyyəti və dövlətin inkişaf həyatında bir çox zidiyyətli proseslərin baş verməsinə səbəb olur. Xüsusilə böhranlar, maddi və iqtisadi maraqların müxtəlif səviyyələrdə uzlaşmaması, ekoloji fəsadlar buna olan nümunələrdir. Təbii ki, bütün bu problemlərlə bağlı dünya ölkələri, beynəlxalq təşkilatlar əsaslandırılmış proqramlar, konsepsiyalar hazırlayaraq həyata keçirsə də, hələ gözlənilən səviyyədə müsbət meyillər baş vermir. Təcrübə göstərir ki, mövcud problemlərin yaranması və inkişafı əsasən maliyyə- iqtisadi amillərlə daha six bağlı olur və məhz bu baxımdan da onların mütəmadi olaraq təhlilinə, qiymətləndirilməsinə ehtiyac yaranır. Bu səbəbdəndir ki, artıq iqtisadi, maliyyə və ekoloji problemlərin qiymətləndirilməsində obyektiv, şəffaf və geniş informasiya teminatlı audit rəyinə zərurət yüksək olaraq qalmaqdadır. Auditin nəzəri və metodoloji əsaslarının tədqiqində daha çox bu xidmətin genişmiqyaslı ictimai-iqtisadi müstəvidəki fəaliyyətinə diqqətin son illərdə artırılması da məhz bu səbəbdəndir.

Auditin müasir tələblər baxımmdan mahiyyəti

Son dövrün təcrübə və tədqiqatları belə bir mühüm cəhəti əsaslandırmağa imkan verir ki, auditin mahiyyətinə olan baxışlarda bəzi fərqlilik mövcud olsa da, lakin ümumi mənada onlar sahənin müasir cəmiyyətdə, iqtisadi inkişaf proseslərində yüksək rolunu, mövqeyini daha aydın xarakterizə edir. Xüsusilə, auditin iqtisadi fəaliyyət və hadisələr haqqında obyektiv məlumat formalaşdırması prosesi kimi qiymətləndirilməsi bu xidmətin müasir bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi, vacib infrastruktur sahəsi olduğunu göstərməklə, qlobal iqtisadi proseslərin gedişində, informasiyalı cəmiyyət quruculuğunda onun da aparıcı lokomotivlərdən birinə çevrilməsini təsdiq etmiş olur.

Hər bir elm sahəsi ümumi qəbul olunmuş və əsaslandırılmış mahiyyət, anlayış yanaşması, baxışları üzərində qurulur. Tədqiqatlar göstərir ki, maliyyə-iqtisadiyyat sahəsində və leksikonumuzda zəruri və vacib termin, anlayış kimi öz əhəmiyyətini getdikcə genişləndirməkdə olan auditin də bu baxımdan konkret və dəqiq mahiyyət-anlayış aydınlaşdırılmasına zərurət artmaqdadır. Belə araşdırma auditin bir iqtisadiyyat, infrastruktur sahəsi kimi inkişafında, onun fəaliyyəti qarşısında mövcud olan problemlərin aradan qaldırılmasında öz təsirini göstərə bilər. [12, s. 35-36]

Həmçinin, müasir inkışaf meyilləri və auditin bu proseslərdə oynadığı fəal rol göstərir ki, mövcud hüquqi əsaslarda auditin cəmiyyət həyatı və iqtisadi inkişaf üçün əhəmiyyətinin daha geniş qiymətləndirilməsinə ehtiyac vardır. Məhz belə yanaşma aparılan tədqiqatlarda da öz aydın əksini tapmaqdadır: "Audit - geniş mənada cəmiyyətdə gedən iqtisadi-maliyyə proseslərini qiymətləndirərək, bu proseslər haqqında cəmiyyət üzvlərinə, maraqlı tərəflərə obyektiv və şəffaf informasiya çatdıran sivil bazar nəzarəti formasıdır". [12, s. 44]

**Audit sosial-ictimai inkişaf proseslərində**

Audit sisteminin ölkə iqtisadiyyatı və onun inkişafı üçün mühüm əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi qiymətdə daha aydın görünür: "Audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə saflaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edir". [1]

Digər tərəfdən, ölkə başçısının auditin inkişafını daha geniş müstəvidə görməsi, iqtisadiyyatın beynəlxalq inteqrasiyaya qovuşmasında, maliyyə sisteminin möhkəmlənməsində və ictimai-iqtisadi təhlükəsizliyin möhkəmlənməsində onun əvəzsiz rol oynamasını əsaslandırması bu fəaliyyət sahəsinin yüksək dəyərini bir daha təsdiq edir. Prezident İlham Əliyevin: "Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə ıqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli ıqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir" kimi baxışları və mövqeyi bir daha auditin ictimai-iqtisadi inkişaf proseslərində nə kimi xüsusi əhəmiyyət kəsb etdiyini göstərir. [1]

Ali maliyyə-iqtisadi nəzarət sistemi kimi dövlət auditinin, Hesablama Palatasının təşklinə qanunvericilikdə Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanı kimi yanaşma əks edilsə də, lakin onun funksional fəaliyyəti daha geniş və çoxcəhətli şəkildə təsbit olunur. [3]

Auditin funksional fəaliyyətinin ictimai və iqtisadi həyatdakı rolu və zəruriliyi nəzərə alınmaqla, onun fəaliyyət dairəsi qanunvericilikdə bu baxımdan verilir: "Hesablama Palatası dövlət büdcəsinin təsdiq edilməsinə və icrasına, dövlət əmlakının idarə edilməsinə, onun barəsində sərəncam verilməsinə, dövlət əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına, hüquqi şəxslərə və bələdiyyələrə dövlət büdcəsindən vəsaitlər ayrıldıqda həmin vəsatlərin təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirir". [3]

**Audit intellektual yönümlü fəaliyyətdə**

Auditin iqtisadiyyatda və cəmiyyət həyatında oynadığı rolun böyüklüyü və əhəmiyyətliliyi bu rəaliyyət sahəsinə olan müasir nəzəri-konseptual yanaşmalarda daha aydın şəkildə görünməkdədir. Rusiya Elmlər Akademiyasının müxbir üzvü Andrey Qeym iqtisadiyyatın, fəaliyyət sahəsinin yeni inkişaf istiqaməti olan "elmi auditin" inkişaf zərurətini əsaslandırır. Alimin baxışlarından nəzərə çarpır ki, o, elmi auditin tətbiqində yeni yanaşma tərzinin olmasını zəruri hesab etsə də, lakin burada ümumi audit konsepsiyasından, prinsip və təşkil meyarlarından, auditin aparılma texnologiyasından istifado edilməsini də məqsədəuyğun hesab edir. [15]

Auditin intellektual mülkiyyətin və fəaliyyətin formalaşmasında və inkişafında olan rolu və əhəmiyyəti istər nəzəri, istərsə də praktiki baxımdan səciyyələndirilməlidir. Belə ki, intellektual mülkiyyətin dəyərinin mənəvi baxımdan qiymətləndirilməsi çətin olsa da, lakin onun məhsulunun bazara çıxışı və müəyyən bir ölçü meyarına, imicə uyğun gəlməsi özündə xərcləri, bu xərclərin əsaslandırılmasını tələb edir. Məhz müasir intellektual mülkiyyətin mümkün bazar dəyərinin formalaşmasında və onun nəticələrinin səmərəliliyinin qiymətləndirilməsində audit öz konkret fəaliyyəti ilə çıxış edir. Çünki, intellektual mülkiyyət özü də mühasibat uçotunun bir obyekti hesab edilir, o, auditin bazar üçün əhəmiyyətlilik səviyyəsini əks etdirən verdiyi qiymət və rəyindən sonra istehlakçı üçün daha çox maraq kəsb edir. [5, s. 26] Beynəlxalq təcrübə göstərir ki, intellektual mülkiyyət auditin daha həssas və mürəkkəb tədqiqat obyekti olub, bazarda xiisusi ekspert rəyindən, dəyərləndirilməsindən sonra daha cəlbedici olur. [16]

**Audit idarəetmə sisteminin əsas tərkib elementi kimi**

İngilis iqtisadçı-auditoru R.Adams auditi idarəetmə sisteminin, əsasən də subyektin təsərrüfat fəaliyyətində mühüm bir element, təsir vasitəsi hesab edir. Adamsın tədqiqatları belə bir nəticəni çıxarmağa imkan verir ki, audit yalnız mühasibat və uçot sisteminin təşkili və ona nəzarət aləti kimi götürülmür, o daha çox idarəetmə qərarlarının əsaslandırılması və fəaliyyətin müxtəlif dövrlərdəki nəticələrinin maliyyə, iqtisadi dayanıqlıq baxımdan müəyyənedici bir qüvvəsi kimi qəbul edilir. [6, s. 27] Belə yanaşma auditin müəssisənin

fəaliyyətindəki mühüm rolunu göstərməklə, onun makroiqtisadi inkişafın sürətləndirilməsinə olan təsir imkanlarının dəyərini daha aydın əks etdirir.

Auditin iqtisadiyyat vө təsərrüfat həyatında oynadığı belə mühüm və yaxın mövqeyi amerikalı alimlər E.A.Arens və C.K.Lobbek də ifadə edirlər. Onların qənaətinə və tədqiqatlarının nəticələrinə görə audit bir xidmət növü olaraq maliyyə-təsərrüfat fəaliyyətinin təşkilində, aparılmasında əsas rollardan birini oynamaqla yanaşı, həmçinin idarəetmə sisteminin və menecmentin fəaliyyətinin səmərəliliyinin artılmasında, subyekt və bazar, maraqlı tərəflər üçün düzgün, şəffaf və neytral informasiya bazsının formalaşdırılmasında yaxından iştirak edir. [7, s. 14] Zənnimizcə, mövcud yanaşma tərzi nəinki biznesin təşkili və idarəedilməsi baxımdan əhəmiyyətlidir, o eyni zamanda konkret zamanda və məkanda iqtisadi inkişaf proseslərinin təhlil edilib, qiymətləndirilməsi və nəticə qərarlarının qəbul olunması baxımından da vacib hesab edilməlidir.

V.D.Atıdreyevin auditor fəaliyyətinə yanaşması nisbətən fərqliliyi ilə nəzərə çarpır. Araşdırmalar göstərir ki, iqtisadçı "auditə, o cümlədən daxili auditə daha geniş mənada baxıb, onu idarəetmə sisteminin təşkili və tənzimləmə forması, vasitəsi kimi qiymətləndirir, idarəetmə funksiyası olaraq qəbul edir". [9, s. 30]

Müvafıq yaxın mövqedən həmçinin, O.V.Kovalyova vo Y.P.Konstantinov da çıxış etməklə, auditin müxtəlif səviyyəli iqtisadi və təsərrüfat sahəsindəki fəaliyyətində ali idarəetmə orqanına xas mühüm cəhətləri yüksək dəyərləndirirlər". [13, c. 51]

Auditə olan belə mövqe yanaşması daxili və dövlət maliyyə nəzarəti, auditi ilə bağlı qanunvericilik sənədlərində də aydın şəkildə nəzərə çarpır. [3; 4] Zənnimizcə, digər yanaşmalar kimi auditə olan mövcud yanaşma da auditin yalnız iqtisadi və təsərrüfat fəaliyyətində bəzi baxışlardakı dar mövqeyini alt-üst edir. Çünki, XX əsrin ikinci yarısından başlayaraq auditin istər təsərrüfat fəaliyyətinin təşkili və tənzimləmə sahəsindəki təhlil-qiymətləndirici mövqeyi, istərsə də idarəetmə sistemindəki başlıca funksional fəaliyyəti artıq irəli sürülür.

Auditin biznes fəaliyyətinin təşkilində və səmərəliliyinin artırılmasında iştirakı

Auditin iqtisadi və biznes fəaliyyətində vacib və əvəzedilməz bir mövqeyi ondan ibarətdir ki, o, fəaliyyətin təşkilinə xidmət edir, mənfəətin əldə edilməsi ilə bağlı bütün prosesləri təhlil edərək qiymətləndirir və nəticə olaraq təsərrüfat həyatında mövcud problemlərin aradan qaldırılması ilə bağlı səmərəli və obyektiv rəy irəli sürür. Xüsusilə, mənfəət normasının dəyişkənliyi problemlərini üzə çıxarmaqla, onun yüksəldilməsi istiqamətində əsaslandırılmış təkliflər verir. Mövcud yanaşma artıq XX əsrin ikinci yarısından başlayaraq müasir dövrədək bazar münsaibətlərinin tənzimlənməsində

və inkişafında xüsusilə vacib bir amil kimi qiymətləndirilməkdədir. Hər hansı sahibkarlıq fəaliyyətinin əsaslarını tədqiq etsək iki vacib istiqamət və məqsəd xüsusilə fərqlənəcəkdir: yüksək mənfəətin əldə edilməsi və şirkətə, firmaya olan inamın artımı. Bu baxışları inkişaf etmiş və inkişaf etməkdə olan bazar iqtisadiyyatı ölkələrinin fırma və şirkətlərinin, transmilli şirkətlərin fəaliyyətinin hüquqi əsaslarını təşkil edən təsis sənədlərində, bazar etik davranış məcəllələrində aydın görmək mümkündür. Təcrübə göstərir ki, mənfəətliliyin artımında və bazar, fəaliyyət nüfuzunun qorunub saxlanmasında auditin fəaliyyəti genişdir, burada auditin peşəkar və əsaslandırılmış rəyi daha yüksək baxımdan qiymətləndirilməlidir. [10, c. 87; 11, c. 17-25]

Zənnimizcə, auditor rəyi həqiqətən də bazarda olan sağlam və işgüzar mühitin qorunub saxlanmasında önəmli rol oynamaqla yanaşı, həm də bazar iqtisadiyyatlı ölkələrdə iqtisadi inkişafın fəallaşmasında, maraqlı tərəflərin bazardakı hərəkətinin istiqamətlənməsində (biznesin qurulması, investisiya yatırımı, fond bazarının canlanması və s.) mühüm təsir vasitəsi hesab edilməlidir.

Auditor peşəsinin iqtisadiyyat və biznes üçün əhəmiyyətliliyi və zəruriliyi də cəmiyyətdə öz yüksək qiymətini almaqdadır. İqtisadi mənbələrdə auditor sənətinin, peşəsinin iqtisadi, ictimai mahiyyətinin qədim dövrdən gəldiyi irəli sürülməklə, onun bu sahədə verdiyi faydaların zəruriliyi əsaslandırılır. Bu faydaların həm sağlam və səmərəli nəzarət sisteminin təşkili ilə, həm də iqtisadi fəaliyyətin inkişafı ilə bilavasitə bağlı olması göstərilir. [12, s.44; 14, s. 64]

Zənnimizcə, müasir auditor peşəsinə olan peşə-ixtisas tələblərinin yalnız maliyyə, mühasibat-uçotu, auditlə bağlı olmayıb, daha geniş müstəvidə (iqtisadiyyat, hüquq və s.) əhatə olunması bu baxımdan da irəli gəlir. [2]

Auditin biznesin və təsərrüfat fəaliyyətinin təşkili və inkişafında mühüm bir təsir vasitəsi kimi dəyərləndirilməsi və onun bu baxımdan funksional fəaliyyəti ölkə qanunvericiliyində də öz ifadəsini tapmaqdadır. Qanunvericilikdə auditin, əsasən də müstəqil auditin fəaliyyət istiqaməti bu şəkildə öz ifadəsini tapır: təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə (auditor təşkilatının nizamnamə məqsədlərinə) uyğun olaraq maliyyə-təsərrüfat münasibətləri sahəsində digər xidmətləri göstərmək auditor xidməti hesab edilir. Ölkə qanunvericiliyində auditorun biznes-təsərrüfat fəaliyyətinin təşkili və aparılması ilə bağlı verdiyi rəy bütün hüquqi və fiziki şəxslər, dövlət hakimiyyəti və idarəetmə orqanları, habelə məhkəmə orqanları üçün hüquqi əhəmiyyəti olan rəsmi sənəd hesab edilərək, qiymətləndirilir". [2]

Auditin ictimai-iqtisadi həyatda və biznes fəaliyyətində neytrallığı, obyektivliyi və şəffaflığı təmin etməsi ilə bağlı beynəlxalq təcrübədə olduğu kimi Azərbaycan qanunvericiliyində belə mühüm müddəa öz əksini tapır: "Yoxlanılan müəssisədə şəxsi əmlak mənafeyi, yoxlanılan müəssisənin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, müəssisənin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, müəssisədə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə auditorlara həmin müəssisələrdə audit aparmaq qadağandır". [2]

Auditor fəaliyyətinin tənzimlənməsi üzrə nəzəri-metodoloji əsaslar hazırlayan "Audit üzrə beynəlxalq standartlar Komitəsi" (International Auditing and Assurance Standards Board) auditə yanaşmada onun iqtisadi və təsərrüfat fəaliyyətinin təşkili və tənzimlənməsindəki vacib rolunu əsaslandıraraq, bu fəaliyyətin əsas qiymətləndirici mövqeyini irəli sürür (əsasən də daxili audit üzrə). Lakin digər tərəfdən araşdırmalarımız göstərir ki, iqtisadi və təsərrüfat fəaliyyətinin təşkili və tənzimlənməsində audit əsas rollardan birini oynamaqla, eyni zamanda bu fəaliyyətlərin digər mərhələsi olan makroiqtisadi inkişaf proseslərinin təmin olunmasına xidmət etmiş olur. Belə ki, istehsal, bölgü, mübadilə və istehlak proseslərinin hər birində auditin mövcudluğu zərurətini və bu proseslərə təsir imkanlarını birbaşa və dolayı şəkildə hüquqi-normativ sənədlərdə və nəzəri- konseptual baxışlarda olan yanaşmalar aydın şəkildə göstərməkdədir.

Auditin əvvəldə qeyd etdiyimiz sahələrdəki fəaliyyətini və iştirak səviyyəsini E.A.Arens və C.K.Lobbek də öz tədqiqatlarının nəticəsi kimi əsaslandıraraq belə bir məntiqli fikri irəli sürürlər. Birincisi, iqtisadi və təsərrüfat fəaliyyətində audit müxtəlif şaxəli əməliyyatlar həyata keçirir (funksional, təşkilati, məqsədli). İkincisi, o, idarəetmə auditi kimi fəaliyyətini qurmaqla, daha çox idarəetmə sisteminin təşkili və tənzimlənməsinə xidmət edir. Üçüncüsü, audit sosial yönümlü fəaliyyət göstərməklə, bu yönümlü məsələlərin, problemlərin (kadr, bazarda reytinqin səviyyəsi, əmək vəonun məhsuldarlığı və s.) təhlil edilib, qiymətləndirilməsində fəal rol oynayır. [7, c.14] Zənnimizcə, auditin təsərrüfat fəaliyyətində oynadığı rol kimi onun idarəetmə sisteminin təşkili və tənzimlənməsindəki rolu da mühüm və vacib bir baxımdan qiymətləndirilməlidir. Həmçinin, auditin iqtisadiyyatla yanaşı, sosial həyat üçün də önəmli fəaliyyəti hər zaman nəzərə alınmalıdır. Təcrübə göstərir ki, idarəetmə sisteminin qərarlarının əsaslandırılmasında, onun səmərəliliyinin artırılmasında auditin xidməti öz əvəzsizliyi ilə çıxış edir. Digər tərəfdən, müasir sosial sahələrdə (təhsil, elm və s.) auditin fəaliyyət imkanlarının artması üçün kifayət qədər şərait vardır.

Dünyada məşhur olan "Audit Montqomeri" kitabının müəlliflərinin tədqiqatlarının belə bir cəhəti daha çox diqqəti cəlb edir: "Bir sıra daxili nəzarət formalarının məzmunu və mahiyyəti İncildə öz əksini tapır.

Bibliyada konkret olaraq əmlakın və mülkiyyətin qorunması ilə bağlı ikili yanaşma əks edilsə də, bu sahədə mötəbər, nüfuzlu və dürüst şəxslərin cəlb olunması, onlar arasında məsuliyyət və vəzifə bölgüsünün aparılması göstərilir". [8, c. 22-23] Qədim dövrün və müasir həyatın inkişaf tarixinə məntiqi faktlarla yanaşsaq, məhz belə mötəbər, peşəkar və məsuliyyətli şəxslərin daha çox auditorlardan ibarət olması üzə çıxır.

Auditin, auditorun xidmətlərinin həkimlik, keşişlik kimi xidmətlər ilə bağlılığında da kifayət qədər məntiqi və fəlsəfi açıqlamalar mövcuddur. Belə ki, iqtisadi, maliyyə-təsərrüfat fəaliyyətini bir canlı orqanizm kimi qəbul etsək, auditor onun təşkilinin, nəticələrinin diaqnostikasını keçirərək, qiymətləndirir, yaranmış problemlərin aradan qaldırılmasına, onun hüquqi istiqamətdən və cəmiyyət üçün qəbul edilmiş norma və xətdən uzaqlaşmasının qarşısının alınmasına xidmət edir. Belə oxşar baxışların müdafiəsi bir çox formalarda alimlər tərəfindən də ciddi şəkildə qəbul edilməkdədir.

Dövlət quruculuğu və onun hüquq-mühafizə sisteminin təşkilinin müxtəlif mərhələləri baxımından auditə yanaşmalar da xüsusilə diqqəti cəlb edir. Belə ki, polis, hüquq-nəzarət sözünün metaforik (mahiyyət, davamlı, proses ardıcıllığı) əsaslarına baxışlar onu göstərir ki, o da auditor kimi özgənin, cəmiyyətin (onun üzvünün) malik olduğu əmlakın, mülkiyyətin, maraqların qorunmasına və məqsədəuyğun təşkilinə xidmət edir. Zənnimizcə, məhz auditin istər iqtisadi, istərsə də hüquqi fəaliyyətinin müxtəlif qanunvericilik aktlarında belə obrazlı şəkildə öz ifadəsini tapmasının mahiyyət açıqlamaları da bu baxımdan qaynaqlanır.

Qədim və orta əsrlərdən başlayaraq, müasir dövrə qədər tarixi inkişaf yolu keçən auditin mahiyyət-anlayış açıqlaması onun rolunun yalnız dar, müəssisə, təsərrüfat çərçivəsində yekunlaşmasına, nəzarətçi-təftişçi kimi baxışlarda qəbul edilməsinə imkan vermir. Bütün bu inkişaf prosesləri göstərir ki, audit ictimai-iqtisadi həyatın müxtəlif sahələrində səmərəli, müstəqil və öz prinsiplərinə (obyektiv, neytral, müstəqil) uyğun olmaqla, geniş tarixi yol keçmiş bir sahə kimi əhəmiyyət kəsb edir. [12, s. 31] Zənnimizcə, belə yanaşma həm tarixi inkişaf mərhələsi, həm də müasir dövrümüzün reallıqları baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, auditin iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ictimai-sosial həyatda məqsədəuyğun və səmərəli təşkili və fəaliyyəti özünü daha çox doğrultmaqdadır. Digər tərəfdən, bu baxışlar həm də ölkə rəhbərliyinin auditin iqtisadi inkişafın sürətlənməsində mühüm bir təsir vasitəsi olmasını göstərməsi ilə də sübut edilməkdədir.

Azərbaycanda gedən ictimai-iqtisadi inkişaf prosesləri auditin artıq ictimai müstəvidə də inkişafına yeni bir təkan verməklə, onun cəmiyyətdəki rolunu yüksəltməkdədir. Zənnimizcə, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının müddəalarından irəli gələrək, belə bir fikir irəli sürmək olar ki, audit biznes-təsərrüfat fəaliyyətinin və iqtisadi inkişafın

sürətlənməsində vacib bir fəaliyyət sahəsi olmaqla yanaşı, həm də ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində, cəmiyyətdə iqtisadi demokratiyanın genişləndirilməsinə rəvac verilməsində və vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığın dərinləşdirilməsində, korporativ idarəetmədə müxtəlif tərəflərin maraqlarının maksimum qorunmasının təmin edilməsində də öz genişçalarlı xidmətləri ilə çıxış etməlidir.

Nəticə

İqtisadi və təsərrüfat fəaliyyətinin təşkili və tənzimlənməsində audit əsas rollardan birini oynamaqla, eyni zamanda bu fəaliyyətlərin digər mərhələsi olan makroiqtisadi inkişaf proseslərinin təmin olunmasına xidmət etmiş olur.

Auditin təssərüfat fəaliyyətində oynadığı rol kimi onun idarəetmə sisteminin təşkili və tənzimlənməsindəki rolu da mühüm və vacib bir baxımdan qiymətləndirilməlidir. Həmçinin auditin iqtisadiyyatla yanaşı, sosial həyat üçün də önəmli fəaliyyəti hər zaman nəzərə almmalıdır. Müasir sosial və elmi-intellektual sahələrdə auditin fəaliyyət imkanlarının artması üçün kifayət qədər şərait vardır.

Tədqiqat və araşdırmalara görə belə nəticəyə gəlmək mümkündür ki, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının həyata keçirilməsi auditin də bu mühüm quruculuq proseslərində daha fəal iştirakı üçün yeni-yeni fəaliyyət istiqamətləri açır, ölkə iqtisadiyyatının tarazlı və dayanıqlı inkişafının təmin edilməsində, şəffaflığm artırılmasında, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsində və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlərin reallaşmasında bu xidmətin rolunun artırılmasmı zəruriləşdirir.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020)". Bakı, 2012.
2. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
3. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
4. "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2007.
5. "Azərbaycan milli audit standartları". "Nağıl evi". Bakı, 2004, s. 26.
6. Адамс R Основы аудита. М.: Аудит, ЮНИТИ, 1995.
7. Аренс А., Лоббек Дж. Аудит. М.: Финансы и статистика, 1995.
8. Аудит Монтгомери. Ф.Л. Дефлиз, Г.Р. Дженик, В.М. 0'Рейлли, М.Б. Хирш. Издательство "Юнити", 1997.

9. Андреев В.Д. Внутренний аудит. М.: Финансы и статистика, 2003.
10. Бычкова С.М. Доказательства в аудите. М.: Финансы и статистика, 1998.
11. С.М. Бычкова, Е.Ю. Итыгилова. Концепция полезности финансовой информации: совре- менный взгляд и слияние на критерии аудита. (VII Мижнароднои науково-практичнои конференции.) К.: NNÜ "IAE", 2013.
12. Yaşar Məmmədov. Azərbaycan Respublikasında auditor xidmətinin formalaşması və inkişaf perspektivləri. "Elm" nəşriyyatı. Bakı, 2006.
13. КовалеваО.В., Константинов Ю.П. Аудит. М.: Приор-издат, 2003.
14. КамышановП.И. Учет и аудит. - М., 2008.
15. Газета.ру."Странно требовать "научного аудита" только от институтов РАН". 26.08.2013.

**Ф.Шакаралиев**

## Анализ развитие аудита в общественном - экономическом жизни по современным требованиям

### Резюме

Статье оценивается роль аудита в общественном - экономическом жизни по современным требованиям. Анализируется научные и концептуальные взгляды на социальная и экономическая деятельность аудита. Показывается современный подход в аудита по сущности и логики.

### Xülasə

Məqalədə auditin ictimai-iqtisadi həyatda oynadığı rol müasir tələblər baxımından qiymətləndirilir. Həmçinin, auditin iqtisadi və sosial istiqametli fəaliyyəti nəzəri və konseptual aspektlərindətəhlil olunur. Auditə müasir mahiyyət və məntiq baxımmdan yanaşma irəli sürülür.

**GÜNEL BEHBUDOVA**
**doktorant, Əmək və Sosial Problemlər üzrə**
**Elmi-Tədqiqat və Tədris Mərkəzi, Bakı, Azərbaycan**

# ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN CƏMİYYƏTƏ SOSİAL-İQTİSADİ İNTEQRASİYASININ PERSPEKTİV İSTİQAMƏTLƏRİ

**Açar sözlər**: əlillik, əlillərin əmək potensialı, əmək fəaliyyəti, sosial-əmək reabilitasiyası, sosial-psixoloji adaptasiya, peşəyönümü və peşə reablitasiyası.
**Ключевые слова:** инвалидность, трудовой потенциал инвалидов, трудовая деятельность, социально-трудовая реабилитация, социально-психологическая адаптация, профориентация и профессиональная реабилитация.
**Keywords:** disability, labour potential of persons with disabilities, labour activity, social and occupational rehabilitation, social and psychological adaptation, career guidance and vocational rehabilitation.

Qloballaşan dünyada öz layiqli yerini tutaraq möhkəmlənən və böyük perspektivləri olan müasir Azərbaycanm inkişaf strategiyasının əsas məqsədləri kimi cəmiyyətin rifah halının yüksəldilməsi, maddi nemətlərin vətəndaşlar arasırıda bərabər bölünməsi, etibarlı sosial müdafıə, sosial cəhətdən zəif insanların, o cümlədən əlillərin reabilitasiyası və cəmiyyətə inteqrasiyası tədbirlərinin genişləndirilməsi çıxış edir. Bu mənada sağlamlıq imkanları məhdud insanların istər milli qanunvericilikdə, istər beynəlxalq pakt və konvensiyalarda öz əksini tapmış hüquq və azadlıqlarının maneəsiz reallaşması və hərtərəfli qorunması, öz fərdi maraq və qabiliyyətlərinə uyğun dolğun həyat sürməsi, həyatın bütün sahələrinə tam inteqrasiya edilməsinə şəraitin yaradılması prioritet vəzifələrdəndir.

Əlilliyin artması bu prosesə xəstəlik, travma və digər səbəblərin təsirini əks etdirir, eyni zamanda bu təsirin azalması tibbi texnologiyalanın inkişafı və tətbiqi, səhiyyə infrastrukturunun yeniləşdirilməsi və profilaktika tədbirlərinin yaxşılaşdırılması nəticəsində mümkündür.

Müşahidələr göstərir ki, adətən kiçik yaşlarda əlilliyin artım tempi yüksək olduğu halda, yaşlı şəxslərin əlilliyinin artım tempi zəif olur. Bunun səbəbləri hamiləlik və doğuşla bağlı patologiyaların vaxtında müəyyən edilməməsidir.

Əlillərin əmək potensialının formalaşması, onların peşə və sosial reabilitasiyası, işədüzəltmə problemləri dövlət orqanlarının, alimlərin və mütəxəssislərin daima diqqət mərkəzindədir. Burada əsas diqqət əlilliyi olan

insanların cəmiyyətin bütün sahələrinə sosial inteqrasiyasının institusional əsaslarının işlənməsinə, əlilliyi olan şəxslərin diskriminasiyası əleyhinə qanunvericilik, əmək sferasında əlillərin hüquqlarının müdafiəsi məsələlərinə yetirilir. Eyni zamanda əlillərin əmək potensialının lazımi qədər qiymətləndirilməməsi ilə əlaqədar onların məşğulluğu və işəgötürənlər tərəfindən onların əməyinə zəif maraq göstərilməsi sahəsində yaranan problemlər hələ ki, həll olunmamışdır. Halbuki əlilliyin yeni paradiqması bu insanların iqtisadi, sosial, siyasi proseslərdə fəal iştirak etmək, peşə və əmək fəaliyyətinin növü seçimində sərbəst olmaq hüquqlarım nəzərdə tutur.

Əlillərin əmək potensialı cəmiyyətin əmək potensialının tərkib hissəsi kimi onların insan kapitalına transformasiya olunur. Başqa sözlə, əlillərin əmək potensialı onların cəmiyyətin həyatında fəal iştirakı, kifayət qədər gəlir əldə etməsi, tələbatlarını lazımi səviyyədə ödəməsi, layiqli həyat səviyyəsinə və yüksək sosial statusa nail olması üçün imkan yaradır. Əlillərin sağlamlıq imkanları müəyyən səbəblərə görə məhdud olsa da, o, insan kapitalının digər komponentlərinin inkişafı ilə (ilk növbədə təhsil, peşə təcrübəsinin toplanması, ixtisaslaşma) kompensasiya oluna bilər. Əlillərin əmək potensialına belə yanaşma əlilliyi olan insanların əmək fəaliyyətinə cəlb olunması üçün nəzəri və praktiki tədbirlərin metodoloji əsasını təşkil edir.

Cəmiyyətin sosial təbəqələşməsini dərinləşdirən bazar iqtisadiyyatı şəraitində sağlamlıq imkanları məhdud olan insanların aztəminatlı təbəqəyə düşməsi ehtimalı daha da çoxalır. Fərdin sağlamlıq imkanları və əmək qabiliyyəti məhdud olduqda yaxud heç olmadıqda yaranan məşğulluq problemi onun üçün daha da acınacaqlı olur, çünki həmin şəxsin aldığı pensiya, müavinət və digər yardımlar özünün və bir çox hallarda ailə üzvlərinin yeganə yaşayış vasitəsi kimi çıxış edir. Bu baxımdan əlillərin məşğulluğunun təmin edilməsinin zəruriliyinə iki aspektdən baxılmalıdır: iqtisadi və sosial aspektlər. Bir tərəfdən, işləyərək qazandığı əməkhaqqı ilə öz maddi ehtiyaclarını ödəmək və başqasına möhtac olmamaq hər bir insan kimi əlllər üçün də vacibdir. Digər tərəfdən, əlilliyi olan şəxsin məşğulluğunun təmin edilməsi onun cəmiyyətdən təcrid olunmasının qarşısını alır və sosial-psixoloji vəziyyətinə müsbət təsir göstərir.

Birinci aspekt cəmiyyətin iqtisadi yükünün azaldılması prizmasından vacibdir. Belə ki, işləməyib hər hansı bir gəlir əldə edə bilməyən əlilə təbii olaraq ailəsi, yaxınları və dövlətin himayə etməsi lazım gəlir. Belə vəziyyət işləmədiyi üçün milli gəlirə heç bir dəstəyi olmayan əlili himayə etmək məcburiyyətində qalan insan və yaxud insanların istehsalata qatılmasında da problem yaradır.

İkinci aspekt sosial gərginliyin yumşalması baxımından əhəmiyyətlidir. Deməli, cəmiyyət özü əlillərin məşğulluğu və fəal həyata inteqrasiyasında maraqlı olmalıdır. Bu əhali qrupunun potensial imkanlarının maksimum

səviyyədə reallaşdırılmasının təmin edilməsi cəmiyyətin mühüm vəzifəsidir. Bu vəzifənin həyata keçirilməsi ölkənin iqtisadi vəziyyəti ilə bilavasitə bağlıdır. Belə ki, bəzən əlillərin işlə təmin edilməsinə çəkilən xərclər o qədər çox olur ki, onların sosial yardımlar vasitəsi ilə saxlanması iqtisadi baxımdan daha əlverişli olur. Lakin, sosial tərəqqi baxımından bu xərclərin çəkilməsi özünü doğruldur.

Beləliklə, əlillərin problemlərini yalnız müavinətlər və güzəştlər, o cümlədən müxtəlif təyinatlı sosial yardımlar vasitəsilə həll etmək mümkün deyil, yəni bu problemlərin həlli həm sosial, həm də iqtisadi tədbirlərin həyata keçirilməsi kontekstində ona kompleks yanaşmanı tələb edir. Bu mənada, əlillərin problemlərinin həlli üzrə tədbirlərin ağırlıq mərkəzi tədricən sosial sferadan iqtisadi sferaya yönəldilməli, əlilliyi olan insanlara yardımların verilməsindən onların səmərəli məşğulluğunun təmin edilməsi vasitəsilə layiqli həyat səviyyəsinin əldə edilməsinə keçirilməlidir. Bıı baxımdan əlillərin müxtəlif təyinatlı, məqsədli sosial reabilitasiya proqramlarına cəlb edilməsi müasir sosial müdafiə texnologiyalarının tətbiqinin hazırki mərhələsində mühüm rol oynaya bilər. Bu, eyni zamanda həmin əhali qrupunun tədricən yoxsulluqdan çıxarılmasında potensial imkanların reallaşması mexanizmlərindən biri kimi də çıxış edə bilər.

Beləliklə, əsas məqsədi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması olan sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biri əlillərin cəmiyyətə inteqrasiyası üzrə proqram xarakterli kompleks tədbirlərin həyata keçirilməsi olmalıdır.

Əlillərin cəmiyyətə sosial-iqtisadi inteqrasiyasında sosial-əmək reabilitasiya proqramları mühüm rol oynayır. Əlillərin sosial-əmək reabilitasiyası, həyata keçirilən sosial siyasətin, sosial müdafiə tədbirlərinin nəticəsi kimi aztəminatlı əhali təbəqəsindən olan əlil insanların yalnız maddi cəhətdən deyil, onların cəmiyyətin digər üzvləri ilə bərabər əsaslarda ictimai fəaliyyətdə iştirak etmələri üçün əlverişli şəraitin yaradılmasına yönəldilməlidir.

Sosial-əmək reabilitasiyası fərdin təkcə əmək qabiliyyətini, sağlamlıq durumunu deyil, həm də onun bütün sosial qabiliyyətlərinin, əmək funksiyalarının bərpasını nəzərdə tutur. Reabiltasiyanın məqsədi yalnız ətraf mühitə uyğunlaşmaq deyil, eyni zamanda ətraf mühitə, cəmiyyətə inteqrasiya etmək, onun bütün sahələrinə daxil olaraq fəal iştirak etməkdir.

Əlillərin reabilitasiyası və əmək fəaliyyətinə cəlb edilməsi mənəvi dəstəklə yanaşı, onların daha yaxşı yaşaması, yalnız dövlətin və başqalarının dəstəyi ilə yaşamaqdan azad olması, özünə qapanmaması, cəmiyyətdən təcrid olunmaması, onların gəlirlərinin artması üçün mühüm əhəmiyyət kəsb edir.

Sağlamlıq imkanları məhdud insanların müxtəlif fəaliyyət növləri ilə məşğul olmaları istiqamətində fəallıqlarının aşkara çıxarılması və onun

təmin olunmasına kömək göstərilməsi üçün onlarm fərdi sosial-psixoloji adaptasiya proqramları işlənib hazırlanmalı və həyata keçirilməlidir.
Bu proqramlar peşəyönümü və məşğulluq məsələləri ilə yanaşı, əlillərin əmək vərdişlərinin, sosial fəaliıqlarının, məişət müstəqilliklərinin, fərdlərarası münasibətlərin, əlaqələrin və s. inkişaf etdirilməsinə kömək məqsədlərini də nəzərdə tutmalıdır.

Aparılmış elmi araşdırmalar əlil insanların əmək fəaliyyətlərinin təşkilinin məqsədəuyğunluğunu aşağıdakı kimi əsaslandırmağa imkan verir:

- Əmək fəaliyyəti əlil insanların psixoloji vəziyyətinə müsbət təsir göstərir. Onlar bu fəaliyyət nəticəsində cəmiyyətə lazım olduqlarını dərk edir, fiziki, intellektual və digər imkanlarını qiymətləndirə bilir, kollektiv əmək prosesində iştirak edə və ünsiyyət yarada bilir və beləliklə cəmiyyətə inteqrasiya olunurlar.
- Fiziki hərəkətlə əlaqədar olan əmək fəaliyyəti əlil insanların orqanizminin sağlamlaşdırılması prosesinin aktivləşməsinə müsbət təsir göstərir.
- Əmək fəaliyyəti əlil insanların fəal həyat tərzi üçün şərait yaradır.

Sosial-iqtisadi aktivlik baxımından əlilləri 3 qnıpa ayırmaq olar.

Birinci qrupa öz əmək və peşə vərdişlərini, eləcə də əmək fəaliyyətini həyata keçirə bilmək qabiliyyətini əhəmiyyətli dərəcədə saxlayanlar aiddir. Belə insanlar öz peşə vərdişlərinə və bacarıqlarına uyğun olan fəaliyyət növləri seçə bilirlər. Bu kateqoriyadan olan insanların əmək fəaliyyətinin təşkili zamanı kiçik qrupların formalaşması məqsədəuyğundur. Belə ki, bu qruplarda əlil insanlar ümumı maraq və qarşılıqlı emosional əlaqələr baxımından birləşirlər.

İkinci qrupa daxil olan əlillər üçün hər hansı bir fəaliyyət növü ilə sistemli olaraq məşğul olmaq bir qədər çətindir və psixoloji baxımdan az əhəmiyyətlidir. Belə insanlar üçün sosial fəallığın üstün forması ünsiyyət və asudə vaxtın keçirilməsidir və onlar arasmda ünsiyyət çox vaxt təsadüfi olaraq, bir yerdə yaşamaq, bir-birlərinə məişət xidməti göstərmək prosesində yaramr. Belə insanlara ictimai-faydalı fəaliyyətin həyata keçirilməsində köməkçi işlər həvalə edilə bilər.

Üçüncü qrup əlillərin fəallığı özünəxidmətlə məhdudlaşır. Bu qrupa daxil olan insanlar yalnız yaxınlıqda olan insanlarla ünsiyyət yaradırlar və onların asudə vaxtı mütaliə etmək, televiziya verilişlərinə baxmaq, sosial şəbəkələrdə iştirakla məhdudlaşır. Onların fəal həyat tərzini təmin etmək üçün tibbi gimnastika, idman məşğələləri, gəzintilər təşkil edilir. Onlara sosial müəssisə tərəfindən təşkil olunan evdə müxtəlif profilli (tikişçilik, xırda alver, çəkməçilik, xalçaçılıq, dülgər və s.) yüngül işlər, mərtəbələrdəki güllərə qulluq kimi ictimai işlər tapşırıla bilər. Həyətyanı təsərrüfatların yaradılması da əlillərin əmək fəaliyyətinin təşkilində istifadə oluna bilər. Bu əlillər üçün fərdi qaydada proqramlar işləyib hazırlayaraq aktiv reabilitasiya

tədbirləri həyata keçirmək mümkündür. Burada əmək terapiyasına üstünlük verilməsi vacibdir.

Məhdud imkanlı insanlar adətən iş tapmaqda digər işaxtaranlara nisbətən daha çox çətinliklərlə rastlaşırlar. Bunun səbəblərindən biri əlillərin "bacarıqsız" olması haqqında fikirlərin formalaşmasıdırsa, digər əsas səbəbi ixtisas və peşə səriştələri baxımından digər işçilərlə rəqabət apara bilməmələridir. Odur ki, sağlamlıq imkanları məhdud insanların gələcəkdə işə düzəlməsi üçün yüksək ixtisaslı və təcrübəli təlimçilərin rəhbərliyi altında peşə hazırlığı keçmək və müvafiq sertifikat almaq çox vacib məsələdir. Bunun həyata keçməsi üçün əlillərin peşə hazırhğı və məşğulluğu üzrə milli siyasət formalaşdırılmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, əlil insanların ənənəvi olaraq yiyələndikləri peşələr müasir texnoloji inkişaf dövründə öz əhəmiyyətini itirmişdir. Odur ki, əlillər üçün yararlı olan fəhlə və qulluqçu peşələrinin siyahısma əmək bazarnıın bu günkü və perspektiv tələbləri baxımından yenidən baxılmalı və müvafiq düzəlişlər edilməlidir. Eyni zamanda peşələr üzrə tədris proqramları da müasirləşdirilməlidir.

Əlilliyi olan şəxslərin məşğulluğunun təmin edilməsi onların peşə seçimində düzgün qərar verməsindən də asılıdır. Onların peşə təhsilində uğur qazanması üçün onların fərdi zəka, istedad və maraqları ilə görüləcək işlərin xüsusiyyətləri arasında bir tarazlıq olmalıdır. Bu tarazlığı təmin etmək üçün isə, əlillərin peşələr və onların əldə edilməsi yolları barədə məlumatlandırılması sistemli şəkildə həyata keçirilməlidir [12].

Qeyd etmək lazımdır ki, əlilliyi olan şəxslərin təhsili və peşə hazırlığı müxtəlif formalarda, o cümlədən evdə təhsil və fərdi təhsil formalarında həyata keçirilir. Müşahidələr göstərir ki, evdə təhsil və fərdi təhsil formaları o qədər də effektiv olmur. Əlilliyi olan şəxslərin cəmiyyətə tam inteqrasiyası üçün onların hələ kiçik yaşlarından ümumi təhsil müəssisələrində təhsil almaları daha faydalı olar. Lakin bunun üçün lazımı şərait yaradılmalıdır.

Azərbaycanda dövlət tərəfindən əliliyi olan şəxslərin sosial-əmək reabilitasiyası, təhsil alması və peşə hazırlığı keçməsi üçün lazımi şəraitin yaradılmasına təminat verir və müvafiq tədbirlər həyata keçirilir. 2001-ci ildə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanun qəbul edilmişdir. Bununla yanaşı, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasmda xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı, "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydaları" təsdiq olunmuşdur. "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə" tərtib edilmişdir. Ölkədə 2001-ci ildən etibarən inklyuziv təhsil həyata keçirilir.

Əlilliyi olan şəxslərlə bağlı Respublikamızda həyata keçirilən sosial tədbirlərin sırasında əlillərin sosial və peşə reablitasiyası, məşğulluğu və

cəmiyyətə inteqrasiyası ilə bağlı fəaliyyət mühüm yer tutur. Bu fəaliyyətin əsas məqsədi əlilliyi olan şəxslərin digər əmək qabliyyətli əhali qrupları ilə bərabər səviyyədə məşğulluğunun təmin edilməsi, onların əməyindən istifadə olunması və bunun əsasında maddi vəziyyətlərinin yaxşılaşdırılmasmdan ibarətdir.

Hazırda ölkənin müxtəlif bölgəiərində əsas vəzifəsi əlillik statusu alan şəxslərə tibbi-sosial reabilitasiya xidmətlərinin və əlilliyin qarşısının alınması üzrə profilaktik tədbirlərin həyata keçirilməsindən ibarət olan 15 regional əlillərin bərpa mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə hər il 8 mindən artıq əlilliyi olan şəxsə xidmət göstərilir. Əlillərin bərpa mərkəzlərində reabilitasiya potensialı olan əlilliyin baş vermə səbəbindən asılı olmayaraq bütün dərəcələrdən olan əlilliyi olan şəxslər üçün davamlı reabilitasiya tədbirləri, o cümlədən çatışmazlıqların korreksiyası, sadə əmək vərdişlərinin formalaşdırılması, ünsiyyət, özünəxidmət, fərdi təhsil proqramları üzrə məşğələlər və s. həyata keçirilir [14].

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində sağlamlıq imkanları məhdud olan gənclərin peşə reabilitasiyasının təmin olunması, onlann əmək bazarma çıxışımn asanlaşdırılması məqsədilə "Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi" yaradılmışdır. Müasir avadanlıqlarla təchiz olunmuş inzibati korpus, peşə reabilitasiyası korpusu, tibbi korpus, yataqxana korpusu, kommunal xidmətlər korpusu, yeməkxana korpusu, həmçinin idman zalı, eləcə də stolüstü idman və trenajor zalları ilə təmin olunmuş Mərkəz fiziki və yüngül formalı əqli qüsuru olan gənclərin sosial reabilitasiyasını və peşə hazırlığını təşkil edən sosial xidmət müəssisəsidir. Eyni zamanda 200 nəfərə xidmət göstərə bilən Mərkəzdə sağlamlıq imkanları məhdud olan gənclərin kompyuter istifadəçisi, dərzilik, qadın və kişi bərbərliyi, aşpaz köməkçisi, idman, toxuculuq, rəssamlıq, xalçaçılıq, ağac üzərində oyma və digər peşələr üzrə peşə hazırlığı təmin edilir, dizayn, musiqi və teatr dernəkləri fəaliyyət göstərir, paralimpiya üzrə idman məşqləri, stolüstü oyunlar keçirilir. Burada psixoloji dəstək, fizioterapevtik müalicə və müalicə idmanı üzrə geniş şəkildə tədbirlər həyata keçirilir ki, onların nəticəsində əlillərin bir qismi fəal əmək fəaliyyəti ilə məşğul olmaq üçün əmək bazarında öz iş qüvəsini təklif edə bilsin [14].

Göründüyü kimi, reabilitasiya mərkəzləri il ərzində əlilliyi olan şəxslərin yanız 1,5 faizinə xidmət göstərə bilir. Halbuki, hər bir əlilliyi olan vətəndaşın vaxtaşırı tibbi və sosial reabilitasiya keçmək hüququ vardır. Beynəlxalq təcrübədə hər il əlillərin minimum 50%-iıin tibbi-sosial reabilitasiyası həyata keçirilir. Odur ki, ölkədə tibbi-sosial və peşə reabilitasiyası xidmətlərini həyata keçirən müəssisələr şəbəkəsinin genişləndirilməsinə böyük ehtiyac vardır.

ƏlillərĪn məşğulluğunun təmin edilməsi məqsədi ilə onlara iş yerləri təklif edən sahibkarlarm fəaliyyətində dövlət tərəfindən myəyyən güzəştlər və üstünlüklərin verilməsi nəzərdə tutulur. Lakin reallıqda qanunvericiliyin belə şərtləri əlillərin məşğulluğunun təmin olunmasına müsbət təsir göstərmir. Eyni zamanda, sosial cəhətdən zəif olan və əmək bazarında risk qruplarım təşkil edən əlillərin işə düzəlməsi üzrə tədbirlər görməyən işə götürənlərin qanunla məsuliyyət daşımalarına [9, mad.30-1] baxmayaraq, təcrübədə işə götürənlərin bu problemin həllində maraqlı olmaması müşahidə olunur, çünki əlillərin işlə təmin olunması vəzifəsi qanunvericilikdə nəzərdə tutulsa da, onların öhdəliklərində qeyd olunmamışdır. Belə ki, Azərbaycan Respublikasının Nazirlar Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşə götürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında hər iki ilən bir bağlansn Baş Kollektiv Sazişidə əhalinin həssas qruplarının məşğulluq imkanlarının artırılması üzrə işlərii davam etdirilməsi, iş axtaran və işsiz vətəndaşların məlumatlandırılması üzrə reklam-informasiy2 işinin genişləndirilməsi, yeni iş yerləri haqqında təfsilatlı informasiya bazasımn yaradılması w digər istiqamətlərlə bağh həyata keçiriləcək tədbirlər üzrə müvafiq öhdəliklər qeyd olunsa da [4]. əlillərin məşğulluğu ilə bağlı ayrıca müddəa nəzərdə tutulmur.

Qanunvericiliklə, əlillərin məşğulluğunun təmin edilməsi üçün onlarm peşə-əmək qabiliyyətı və xüsusiyyətləri nəzərə alınmaqla, müvafiq iş yerlərinin, eyni zamanda əlillərin yaşayış əraziləri üzrə onların fərdi əməklə və ya kiçik sahibkarlıqla məşğul olmaları üçün zəruri şəraitin yaradılması müvafiq icra hakiıniyyəti orqanlarının qarşısmda mühüm vəzifə kimi qoyulmuş, əlillərin əməyini tətbiq edən müəssisələr üçün üstünlüklər və güzəştlər müəyyənləşdirilmişdir. Belə ki, müvafiq işədüzəltmə orqanları, habelə mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq müəssisələr və təşkilatlar tərəfindən əlillərin tələbatını və yerli xüsusiyyətləri nəzərə almaqla onlarm əməyindən istifadə üçün ixtisaslaşdırılmış müəssisələrin, sexlərin və sahələrin yaradılması nəzərdə tutulmuşdur. Bundan əlavə, müvafiq icra hakimiyyəti orqanları qeyri-yaşayış otaqlanm verməк, habelə xammal əldə edilməsində və məhsulun satışında kömək göstərmək yolu ilə əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin evdə əməyinin və sahibkarlıq fəaliyyətinin təşkili üçün lazımi şərait yaradırlar [9, mad. 27, 30].

Qeyd etmək lazımdır ki, təcrübədə ixtisaslaşdırılmış müəssisələrin və eləcə də, sahibkarhq fəaliyyətinin təşkili üçün lazımi şəraİtin yaradılmasına az rast gəlinir. Bu sahədə fəaliyyətin gücləndirilməsi "Əlilliyi olan şəxslərin hüquqlan haqqında" yeni Qanun layihəsində öz əksini tapmışdır. Yeni qanun layihəsi üzərinə götürdüyü beynəlxalq öhdəlikləri, o cümlədən bu sahədə dövlət siyasətinin əsas prinsiplərini, dövlət təminatlannı, əlilliyin qarşısınm

alınması, əlilliyi olan şəxslərin reabilitasiyası, məşğulluğu, əlil şəxslərin sosial təminatlan kimi məsələləri əhatə edir. Bununla yanaşı, "Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Proqramı"nm layihəsi də hazırlanmışdır. Praktik əhəmiyyət kəsb edən bu layihə həm də müvafiq dövlət orqanları və QHT-lərlə birgə müzakirə olunur [14].

Əlilliyi olan insanların sosial müdafiəsinin gücləndirilməsi və cəmiyyətə inteqrasiyasının perspektiv istiqarnətləri müxtəlif dövlət proqramlarında da öz əksini tapmışdır.

Azərbaycan Respublikasınm Məşğulluq Strategiyasmda (2006-2015-ci illər) əlillərin məşğulluğuna kömək məqsədilə ayrıca tədbirlər nəzərdə tutulmuşdur [2]:

1. sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxsləri, o cümlədən əlilləri işlə təmin etmək məqsədilə qanunvericiliklə nəzərdə tutulmuş kvota üzrə iş yerlərinin məyyən edilməsi və bu kvotalarm yerinə yetirilməsində işə götürənlərin həvəsləndirilməsi;

2. sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin, o cümlədən əiillərin işə düzəldilməsi üçün nəzərdə tutulan kvotanı təmin etməyən və ya onları işə qəbul etməkdən imtina edən idarə, müəssisə və təşkilatlara "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısmın alınması, əlillərin və sağlamlıq imkanlan məhdud uşaqlann reablitasiyası və sosial müdafiəsi haqqında" Qanunun 25-ci maddəsində nəzərdə tutulan (əliləri işlə təmin etmədikləri aylar üzrə hər iş yeri üçün respublika üzrə orta aylıq əmək haqqınm 3 misli məbləğində vəsait köçürülməsi) inzibati məsuliyyət növlərinin tətbiq edilməsi;

3. "Məşğulluq haqqında" Qanununda nəzərdə tutulan sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar, o cümlədən əlillər üçün əlavə iş yerləri yaradan işə götürənləri həvəsləndirmək məqsədi ilə qanunvericiliyə dəyişikliklər və əlavələr edilməsi.

2011-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasmm həyata keçirilməsi üzrə Dövlət Proqramı"nda əlillərin cəmiyyətə, o cümlədən əmək bazarına inteqrasiyasımn təmin edilməsi, onların məşğulluq səviyyəsinin artınlması məqsədi ilə əlillər üçün xüsusiləşdirilmiş modul tipli peşə təlimi proqramlarının hazırlanması və həyata keçirilməsi, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında gənclərin, o cümlədən gənc əlillərin sosial müdafiəsinin gücləndirilməsi, 2011-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramf'nda əlillərİn və sağlamhq imkanları məhdud uşaqlarm reabilitasiyası, onlarm sosial və psixoloji hazırlıqlarmın təmin edilməsi ilə bağlı kadr potensialınm güeləndirilməsi, əlillərin peşə hazırlığı və əlavə təhsili, onlar üçün peşə təhsili sisteminin

təkmilləşdirilməsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Dövlət Proqrammda nəzərdə tutulan tədbirlər planına qanunvericiliyin təkmilləşdirilməsi məsələləri də daxil edilmişdir [3; 5; 6].

İnsan hüquq və azadlıqlarının müdafıəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazamn və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respubiikasında insan hüquq və azadlıqların müdafıəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda [7] Azərbaycan Respublikasımn tərəfdar çıxdığı beynəlxalq müqavilələr rəhbər tutularaq əhalinin müxtəlif qruplarının, o cümlədən insan hüquqlarının həyata keçirilməsi nöqteyi-nəzərindən zəif hesab olunan qrupların (qaçqm və məcburi köçkünlər, məhkumlar, qadmlar, uşaqlar, ahıllar, əlillər və s.) insan hüquq və azadhqlarımn daha səmərəli qaydada təmin edilməsi məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunur. Proqramda qeyd edilir ki, göstərilən istiqamətlərdə artıq bir çox mühüm tədbiriər həyata keçirilmiş, bu qrupların insan hüquqlannm müdafıəsi məqsədilə beynəlxalq təşkilatlarla birgə layihələr icra edilmişdir. Bununla yanaşı, göstərilən istiqamətlərdə fəaliyyətin mütəmadi qaydada davam etdirilməsi aşağıdakı əlavə tədbirlərin həyata keçirilməsini zəruri edir:

- əlillərin və sağlamlıq imkanları ınəhdud uşaqların təlim və peşə hazırlığınm, onlara göstərilən xidmətlərin (sosial xidmət, inklüziv təhsil və s.) keyfiyyətinin yaxşılaşdınlması məqsədi ilə xüsusi olaraq tibbi, pedaqoji kadrların və sosial işçilərin hazırlanması;
- YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadhqlarmın daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları, o cümlədən əlillər üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əlil şəxslərin cəmiyyətdən təcrid olunmasınm qarşısının alınması və sosial infrastrukturdan maneəsiz istifadəsi üçün müvafiq layihələrin hazırlanacağı və həyata keçiriləcəyi, habelə həmin şəxslərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, onlar üçün məşğulluq imkanlarınm artırılması məqsədi ilə sosial və peşə reabiiitasiya müəssisələrinin saymın artırıiacağı, əlilliyi olan şəxslərin informasiya və kommunikasiya texnologiyalarından faydalanmaq, kommunikasiya sistemləri vasitəsilə informasiya əldə etmək imkanlarının artırılacağı prioritet məqsədlər kimi göstərilmişdir [1].

Əmək və sahibkarlıq fəaliyyətiiə məşğul olmaq arzusunda olan əlillərin peşəyönümünün düzgün istiqamətləndirilməsi, onların məşğulluq imkanlarının müəyyən edilməsi, əmək qabiliyyətlərinə və maraqlarına uyğun

müvafıq peşə növü seçməkdə yardım göstərilməsi bu işdə bütün maraqlı tərəflərin vəzifəsidir.

Müşahidələr göstərir ki, qismən əmək qabliyyəti olan əlil şəxslərin müəyyən hissəsi əmək fəaliyyəti ilə məşğul olmağa həvəslidirlər. Ona görə də əlillərin peşə qabliyyətinin qaytarılması, zəifləmiş və yaxud itirilmiş funksiyasının reablitasiyası və həyat səviyyəsinin yaxşılaşdırılması, onların fıziki imkanlarma və peşə xüsusiyyətlərinə uyğun məşğulluqlarımn təmin edilməsi, başqa sözlə əiilliyi olan şəxslərin sosial adaptasiyası və sosial statusunun yüksəldilməsiıiə şərait yaradılması sahəsində məqsədyönlü işlərin görülməsi zəruridir. Dövlətin bu istiqamətdə - əlillərin məşğulluğunun təmin edilməsi ilə bağlı apardığı siyasətin əsas məqsədi əlillərin potensial imkanlarından tam istifadəsinə iazimi şərait yaratmaqdır.

Respublikamızda fəaiiyyət göstərən əliilərin bərpa mərkəzlərində əlillərin sosial statusunun müəyyən edilməsi və cəmiyyətə inteqrasiyasının təmin edilməsi üçün əsas diqqət bərpa müalicəsi xidmətləri göstərilməsinə yetiriiir. Halbuki, sağlamlıq problemləri ilə bağlı əmək fəaliyyəti imkanları məhdudlaşan şəxslərin sosial adaptasiyası və cəmiyyətə inteqrasiyası məqsədilə tibbi, sosial, psixoioji, pedaqoji və peşəyönümü üzrə kompleks bərpa xidmətlərinin göstərməsi daha məqsədəmüvafiq olar.

Azərbaycan Respublikasmın regionların sosial-iqtisadi inkişaf proqramlarında nəzərdə tutuİmuş açılması gözlənilən müəssisə və təsərrüfat obyektlərindəki iş yerlərinə ölkənin işsiz əhalisinin tərkib hissəsi kimi qismən əmək qabiliyyətli əlillərin də işə qəbul edilməsi məqsədəuyğun hesab olunur. Bu məqsədlə yeni müəssisələr tərəfindən gənc əlillər üçün peşə kurslarmın təşkili və bu kursları bitirənlərin işə qəbul edilməsi üzrə lazımi təşkilati, iqtisadi və texniki tədbirlərin həyata keçirilməsi əlillərin məşğulluq probleminin həllində mühüm əhəmiyyət kəsb edir.

Respublikanm regionlarmda azad sahibkarlıq zonaları yaratmaqla, yeni iş yerlərinin açılması və işsiz əlillərin əmək fəaliyyətinə cəlb edilməsi onların məşğulluq probleminin qismən də olsa aradan qaldırılmasma imkan verər.

Kənd əhalisinin mülkiyyətində kənd təsərrüfatma yararlı torpaq sahələrinin olması onlann məşğulluğunun təmin olunmasında böyük rol oynayır. Ailədə əlilliyi olan şəxslərin digər ailə üzvləri ilə birlikdə həmin torpaqlardan kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə etməsi onların məşğulluğuna və nıüvafiq gəlir əldə etməsinə imkan yarada bilər. Eyni zamanda kənd təsərrüfatı ilə məşğul oimayan işsiz və işaxtaran əlillərin peşə-ixtisas strukturunu nəzərə alaraq onlar üçün qeyri-istehsal sahələrində, xüsusilə də yerli infrastrukturun inkişaf etdirilməsi və genişləndirilməsi istiqamətində müvafıq iş yerlərinin yaradılması bu kateqoriyadan olan əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına şərait yarada bilər.

Əlilliyi olan insanların əmək bazarmda qismən də olsa rəqabətə davam gətirə bilməsi üçün bir sıra ölkələrdə əlillərin regional əmək bazarlarmda rəqabət qabiliyyətli olmasma daha çox imkan verən prioritet fəhlə və qulluqçu peşələrinin siyahısı tərtib olunur. Azərbaycanda da 1997-ci ildə "Əlillər üçün yararlı olan, əmək bazarında rəqabətə daha çox davamlı fəhlə və qulluqçu peşələrinin siyahısı" təsdiq edilmişdir [8, s. 50-51]. Lakin, bu siyahı əmək bazarının bu günkü və perspektiv tələblərinə cavab vermir və onun yeniləşdirilməsinə ehtiyac vardır. Bunu nəzərə alaraq, müəllif tərəfindən adı çəkilən siyahının yenilənməsi həyata keçirilmişdir. Əlilliyi olan insanlar üçün münasib olan peşələri müəyyənləşdirmək məqsədilə əvvəlcə müasir dövrdə əmək bazarmda tələb olunan peşələr qruplaşdırılmışdır. Qruplaşdırma üçün iikin məlumat mənbəyi olaraq aşağıdakı materiallardan istifadə olunmuşdur: ilk peşə-ixtisas təhsili uzrə ixtisasların təsnifatı; Dövlət Məşğulluq Xidmətinin vakant iş yerləri haqqında məlumatları; dövrü mətbuatmda boş iş yerləri haqqında verilmiş elanlar. Nəticədə peşələr 14 qrup üzrə təsnifləşdirilmişdir. Sonra bu peşələr içərisindən əlilliyi olan insanların iqtisadi fəallığının artırılması və sahibkarlıq fəaliyyəti ilə məşğul olması yollarımn tədqiqi məqsədi ilə keçirilmiş sosioloji sorğular, Dövlət Məşğulluq Xidmətinin və "Sağlamhq imkanlan məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi"nin peşə hazırlığı kurslannda əlilliyi olan şəxslərin cəlb olunduğu peşələr [10; 13; 14; 15] və bu sahə üzrə ekspertlərin rəyləri əsasmda əlilliyi olan şəxslərin əmək bazarma çıxışım asanlaşdıra biləcək peşələr müəyyənləşdirilmişdir. Bunlardan ən çox tövsiyə olunan peşələr aşağıdakılardır: ağac üzərində bədii oyma, aşpaz, dərzi, xalçaçı, kişi və qadm bərbəri, manikürçü-kosmetoloq, kompyuter mütəxəssisi, qənnadçı, şirniyyatçı, rəssam və tikişçi.

Əİillərin əmək potensialmdan səmərəli istifadə edilməsi və onlarm etibarlı sosial müdafiəsinin təşkil edilməsi üçün onlarm saymın yaxm və uzaq perspektivdə necə olacağınm proqnozlaşdınlması da mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, əlillərin perspektiv sayınm müəyyən olunması onların cəmiyyətin iş qüwəsinin əlavə mənbəyi kimi qiymətləndirilməsinə imkan verir.

Proqnoz hesablamalara görə, 2014-2018-ci illər ərzində əlillərin sayının 7,1% artaraq, 561 min nəfərə çatacağı gözlənilir. Bu artım əlillərin sosial müdafiəsi, reabilitasiyası və məşğulluğu ilə bağlı proqramların və tədbiriərin planlaşdırılması zamam nəzərə alınmalıdır [37].

Əlillərlə bağlı həyata keçirilən sosial-iqtisadi siyasətin müvəffəqiyyətli olması üçün müvafiq tədbirlər sisteminin həm hazırlanması, həm də həyata keçirilməsi prosesində əlilliyi olan şəxslərin mövcud sosial-demoqrafik vəziyyətinin (yaş-cins strukturu, ailə tərkibi, təhsii səviyyəsi, əlilliyin səbəbləri,

məşğulluğu, gəlirləri və s.) təhlili də mühüm rol oynayır. Bunun üçün isə etıbarh informasiya mənbəyi olmalıdır.

Tədqiqat göstərir ki, Respublikamızda əlillərin məşğulluğu ilə bağlı məsələlərin müasir tələblər səviyyəsində həll edilməsi, sosial-iqtisadi islahatlann mərhələlərinə uyğun dövlət siyasətinin təmin edilməsi üçün zəruri olan tam, dolğun, düzgün və hərtərəfli statistik məlumatlarm çatışmazlığı bu sahədə problemlər yaradır. Məsələn, əlillərin iqtisadi fəallığı və məşğulluğu, o cümlədən kvota ilə işədüzəlmə barədə rəsmi məlumatlar demək olar ki, yox dərəcəsindədir. Odur ki, əlillərlə bağlı xüsusi statisıikanın aparılması və eyni zamanda əlillərə dair alternativ məlumatların əldə edilməsi üçün mütəmadi olaraq sosioloji tədqiqatların və monitorinqlərin keçirilməsi məqsədə uyğundur. Belə tədqiqatların və monitorinqlərin nəticələrindən istifadə edilməsi daha optimal qərarların qəbul edilməsinə imkan verər.

Respublikada əlilliyi olan insanlann cəmiyyətə sosial-iqtisadi inteqrasiyası məqsədilə bu istiqamətdə görülən işlərin davamı kimi aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəmüvafiq olar:

- əlillərin peşə hazırlığı və məşğulluğu üzrə milli siyasətin formalaşdırılması, əmək bazarmın bu giinkü və perspektiv tələbləri nəzərə alınmaqla əlillər üçün yararlı olan fəhlə və qulluqçu peşələrinin siyahısının təsdiq edilməsi, peşələr üzrə tədris proqramlarının müasirləşdirilməsi;
- əlilliyi olan şəxslərə tibbi-sosial və peşə reabilitasiyası xidmətlərini həyata keçirən müəssisələr şəbəkəsinin genişləndirilməsi;
- əlillərin sosial problemlərinin araşdırılması, onların peşəyönümü və peşə reablitasiyası ilə məşğul olan elmi-tədqiqat institutunun yaradılması.

## Ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. www.president.az
2. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər). "Azərbaycan" qəzeti, 26 oktyabr 2005-ci il
3. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarınm Milli Konfederasiyası arasında 2012-2013-cü illər üçün bağlanmış Baş Kollektiv Saziş. http://www.e-qanun.az
5. Azərbaycan gəneliyi Dövlət Proqramı (2011-2015-ci illər). www.gencler2011-2015.az

6. Azərbaycan Respublikasmda yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı (2008- 2015-ci illər). Bakı, 2008
7. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı. «Azərbaycan» qəzeti, 28 dekabr 2011-ci il
8. Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə daxil olan normativ-hüquqi aktların siyahısı (I buraxılış). Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi, Bakı, 2002, 74s.
9. Əlilliyin və uşaqlarm sağlamlıq imkanları məhdudluğunun qarşısınm alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reablitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasınm Qanunu. "Tibbi-sosial Ekspertizanın və Reabilitasiyanın hüquqi, təşkilati, metodiki əsasları". Bakı, 2012, 360 s.
10. Azərbaycan Respublikasmda əlilliyi olan insanların iqtisadi fəailığının artırılması və sahibkarlıq fəaliyyəti ilə məşğul olması yollarınm tədqiqi. /S.R.Bayramovanın rəhbərliyi ilə. Ərnək və Sosiai Problemlər üzrə ElTM-nin elmi-tədqiqat işi üzrə hesabatı, Bakı, 2013, 71s.
11. Əlillərin perspektiv sayınm hesablanması metodikasınm işlənməsi. Əmək və Sosial Problemlər üzrə ETTM-nin elmi-tədqiqat işi üzrə hesabatı. Bakı, 2012, 54 s.
12. Achieving equal employment opportunities for people with disabilities through legislation: An education and training guide. /International Labour Office. Geneva: ILO, 2011, p. 173. www.ilo.org
13. www.ses.gov.az
14. www.mlspp. gov.az
15. http://reytinqinfo.az/kivdf

**Г.Бехбудова**

## Перспективы социально-экономической интеграции людей с инвалидностью в общество

### Резюме

В статье исследованы пути расширения экономической активности и возможностей занятости лиц с ограниченными возможностями с позиции их социально-экономической интеграции в общество. Рассмотрены осуществляемые в Азербайджане меры, способствующие социал-

ьно-трудовой реабилитации, образованию и профессиональной подготовке этих людей, определен, профессии, облегчающие их доступ к рынку труда и перспективы их социально-экономической интеграции в общество.

**G.Behbudova**

**Perspective directions of socio-economic integration of people with disabilities in society**

**Sammary**

The article examines the waysof expansion of economic activity and employment opportunities for persons with disabilities from perspectives of their socio-economic integration into society. The author considers ongoing measures aimed to contribute social and occupational rehabilitation, education and training of people in Azerbaijan and defines the professions helping people with disabilities gain access to the labour market andperspectives of their socio-economic integration.

**Xülasə**

Məqalədə cəmiyyələ inteqrasiya prizmasından əlilliyi olan şəxslərin iqtisadi fəallığmın və məşğuliuq imkanlarımn genişləndirilməsi yolları tədqiq edilmiş, Azərbaycanda belə insanlarm sosial-əmək reabilitasiyası, təhsil alması və peşə hazırlığı keçməsi üçün həyata keçirilən tədbirlər nəzərdən keçirilmiş, onların əmək bazarına çıxışını asanlaşdıra biləcək peşələr və əlillərin cəmiyyətə sosial-iqtisadi inteqrasiyasının perspektiv istiqamətləri müəyyənləşdirilmiş dir.

**NAILƏ QASIMOVA**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
***nailya.gasimova@gmail.com***

# MARKETING IN CHALLENGING TIMES

**Açar sözlər**: marketinq, çətin dövrlər, bazar araşdırmaları, fiziki məhsul, vizual şəxsiyyət, müştəri, inandırıcı fikirlər
**Key words:** marketing, challenging times, market research, physical product, visual identity, customer, persuasive ideas
**Ключевые слова**: маркетинг, сложные времена, исследования рынка, физический продукт, визуальная идентичность, клиент, убеждающие идеи

Abstract

In big companies, marketing departments are adopting 'holistic marketing' which means the growing interest of companies to use a lot of marketing methods to communicate with their customers. Advertising agencies are trying to figure out ways to give a better customer experience and they also are looking for ways to make the shopping experience more interesting. In this article marketing plans for difficult economic conditions will be examined and discussed.

Introduction

Although many marketers see the advantages of a holistic approach to their marketing, many may be slow to adopt it because of practical complications.

We know that money for marketing comes from marketing budgets. But in the new world of holistic marketing, the lines between marketing and other business activities are blurring. Marketers have responded in two ways. They are looking for new places to put advertisements, and they are beginning to see any contact with a consumer as a marketing opportunity. The idea is to engage the customer wherever he or she happens to be. In other words it is a holistic approach to marketing.

In the main part of the article we are going to consider some points which companies should keep in mind when making plans for difficult economic conditions.

Surviving tough marketing times

It is a mistake to cut the budget for market research, because we need to know more than ever how consumers are reacting to a downturn. In challenging times consumers take longer searching for consumer products

and negotiate harder for price reductions. They are more interested in delay purchases, trade down to cheaper models or buy less, sometimes not to buy at all. Must-have features of yesterday are today‘s can-live-withouts. Strong brands are especially valued and continue launching products successfully, but interest in new brands declines.

We can compare a corporate brand with a human reputation. It is something of great value. Strong brands have a real traction in the marketplace. They have a number of important qualities:

- High levels of awareness: people know about them and recognize them when they see them. That might be the physical product, or the visual identity, the design manifestation. But recognition is not enough.
- A set of appealing and persuasive ideas and perceptions that enable the end user, the target audience to know whether or not this is a brand for them.

The main function of a brand is to enable the customer to choose one thing from another-often in markets where there is very little actual difference between the products.

Let us consider the main ideas in the article:

- Maintain marketing spend

Many companies plan their marketing budget based on the previous year and how much they're willing to spend on marketing. This is a great way to hold yourself back from achieving your sales goals, or to spend too much on wasted efforts.

Challenging times are not the time to cut back on advertising. It is well documented that brands that increase advertising during an economic slowdown, when competitors are reducing their advertising, can improve market share and profits. And they can do this at lower cost than during good economic times.

It is of great importance to invest in markets that may take some time to grow: you have to look for newness, look for what is happening next. In challenging time we should forget the calculator. Market research that is the main way to understand the situation, the people from different countries and what they want.

Brands may be able to negotiate better advertising rates. If you have to reduce your marketing spend, you should try to maintain the frequency of advertisements by changing from 30-to 15 second advertisements, replacing radio with television advertising, or increasing the use of direct marketing, which gives more immediate sales impact.

- Adjust product portfolios

Marketers must recalculate demand for each item in their product lines as consumers trade down to models that are good value, such as cars with

fewer options. In tough times, multipurpose goods have advantages over specialized products, and weaker items in product lines should be cut. Gimmicks are out: reliability, safety and performance are in.

Product Portfolio Management capabilities:

1. Full product life-cycle coverage from idea to retirement
2. Market, sales and cost forecasting through an extensive Profit and Loss (P&L) statement tool
3. Competitive intelligence monitoring & assessment
4. Registers to track the progress of releases and change requests
5. Business and market requirements analysis
6. Regulatory constraints tracking
7. Development planning
8. Consolidation of key product statistics (warranty returns, production, sourcing, etc.)
9. Sourcing strategy and configuration modeling

▪ Support distributors

Companies should keep the distributors interested. Distributors are under constant pressure to take on a new range or a new supplier. Any manufacturer who becomes complacent about its distributor network is putting it at risk. If it is good there will be many who want to steal it. Distributor incentives and prizes, newsletters and constant support in the form of visits are essential to keep the distributor interested and stop it being tempted away.

Carrying large number of stock is risky. So companies should offer financing and better returns policies to motivate distributors to carry your full product line. With new products this activity is unproven. The moving to low-priced distribution channels can damage existing relationships with distributors and the image of your brand. However, it may be a good time to drop weaker distributors.

▪ Adjust pricing tactics

Customers will be looking around for the best deals. It may not be necessary to companies to cut list prices, but they may need to offer more temporary price promotions, for example special offers or reductions. It may also be useful to give better discounts for quantity.

There are seven price adjustment strategies: discount and allowance pricing, segmented pricing, psychological pricing, promotional pricing, geographical pricing, dynamic pricing and international pricing.

▪ Focus on market share

Market share represents the percentage of an industry or market's total sales that is earned by a particular company over a specified period of time. Market share is calculated by taking the company's sales over the period and

dividing it by the total sales of the industry over the same period. This metric is used to give a general idea of the size of a company in relation to its market and its competitors.

In all but a few technology categories where prospects for future growth are strong, companies are in competition for market share and, in some cases, survival.

Investors look at market share increases and decreases carefully, because they can be a sign of the relative competitiveness of the company's products or services. As the total market for a product or service grows, a company that is maintaining its market share is growing revenues at the same rate as the total market. A company that is growing its market share will be growing its revenues faster than its competitors. It's the fact!

To stay competitive, companies should look carefully at their cost structure. This will ensure that any cuts or consolidation activities save the most money with the least impact on customers.

Market share increases allow companies to improve their profitability. Companies are always looking to expand their share of the market, in addition to trying to grow the size of the total market by appealing to larger demographics, lowering prices, or using advertising.

Conclusion

In these tough and uncertain economic times, companies may determine that downsizing staff is its best course of action. But it is better to reassess, plan, and mobilize to win relevant new business. In addition, companies can help make the downsizing process gracious and considerate, to preserve:

- Industry reputation
- Client perception
- Company culture

Downsizing should be framed in a realistic, yet optimistic manner. Companies should realize that it's a tough experience and they have gently to promote the positive: change often leads to better opportunities, and it can motivate to evolve towards even greater heights. Not many people are ultimately happier in their newfound positions after being laid off. It's not right to force someone to be 'ok' with this. Instead, companies must be empathetic, listen, and encourage discussion on the pros/cons to release their feelings, and then move on and upward!

Successful companies do not abandon their marketing strategies in times of economic uncertainty; they just need to adapt them.

## Literature

1. David Meerman Scott, The new Rules of Marketing and PR, 2013
2. Charles Mackay, Extraordinary Popular Delusions and the Madness of Crowds, 2003
3. Willem Burgers, Marketing Revealed: Challenging the Myths, 2007
4. Jeffrey Gitomer, 12, 5 Principles of Sales Greatness, Bard Press, 1-st edition, 2004
5. Joe Pulizzi, Epic Content marketing, Mc Graw-Hill, 1-st edition, 2013
6. Zeke Camusio, The Internet marketing Bible, 2011
7. Thomas Nelson, Call to Action, 2006
8. Philip Kotler, Marketing Management, 14-th edition, 2011
9. Houghton Muffin, Guerilla Marketing, fourth edition, 2002
10. Andrew Whalley, Strategic marketing, 2010
11. Martin Lindstorm, Truth and Lies About Why We Buy", Doubleday, 2008
12. Emanuel Rosen, The Anatomy of Buzz, Crown Business, 2002

**N.Qasımova**

## Çətin zamanlarda marketinq

## Xülasə

Böyük şirkətlərdə marketinq şöbələri 'bütüncül marketing' qəbul edir ki, bu da şirkətlərin öz müştəriləri ilə ünsiyyət qurmaq üçün bir çox marketinq metodlarından istifadə etməsinin artmasıdır. Reklam agentlikləri daha yaxşı bir müştəri təcrübəsi vermək üçün yolları müəyyən etməyə çalışırlar və alış-veriş təcrübəsini daha maraqlı etmək yollarını axtarırlar. Bu yazıda çətin iqtisadi şərtlər üçün marketinq planları araşdırılacaq və müzakirə ediləcək.

Bir çox marketoloqlar marketinqə bütöv bir yanaşmanın üstünlüklərini baxsa da, praktik ağırlaşmalardan ötəri bir çoxları bunu qəbul etmək üçün yavaş ola bilərlər.

Məqalənin əsas hissəsində biz çətin iqtisadi şərait planları hazırlayarkən şirkətlərin nəzərə alınması lazım olan bəzi məqamları nəzərdən keçirəcəyik.

Н.Касумова

## Маркетинг в сложных временах
## Резюме

В крупных компаниях отделы маркетинга принимают «целостный маркетинг», который отражает растущий интерес компаний к использованию множества маркетинговых методов для общения со своими клиентами. Рекламные агентства пытаются найти способы улучшить качество обслуживания клиентов, а также ищут способы сделать покупки более интересными. В этой статье будут рассмотрены и обсуждены маркетинговые планы для сложных экономических условий.

Хотя многие маркетологи видят преимущества целостного подхода к их маркетингу, многие из них принимают его не сразу из-за практических сложностей.

В данной части статье мы рассмотрим некоторые моменты, которые компании должны учитывать при составлении планов в сложных экономических условиях.

Успешные компании не должны отказываться от своих маркетинговых стратегий в периоды экономической неопределенности; им просто нужно к ним адаптироваться.

**Rəyçi: Rəna Şamiyeva**
**filologiya elmləri namizədi, dosent**

# MÜNDƏRİCAT

**İNTIZAR QURBANOVA**
ALİ MƏKTƏBLƏRƏ ƏLAVƏ MALİYYƏ VƏSAİTLƏRİNİN CƏLB OLUNMASI YOLLARI ........ 3
**CAVİD İSMAYILOV**
SAHİBKARLIĞIN FORMALAŞMASINA VƏ İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR ........ 11
**RAMİL ƏLİYEV**
İSTEHSAL SAHİBKARLIĞININ İNNOVASİYA TƏMİNATI ........ 22
**FİRİŞ ŞƏKƏRƏ**
AUDİTİN İCTİMAİ-İQTİSADİ HƏYATDAKI İNKİŞAFININ MÜASİR TƏLƏBLƏR BAXIMINDAN TƏHLİLİ ........ 31
**GÜNEL BEHBUDOVA**
ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN CƏMİYYƏTƏ SOSİAL-İQTİSADİ İNTEQRASİYASININ PERSPEKTİV İSTİQAMƏTLƏRİ ........ 40
**NAILƏ QASIMOVA**
MARKETING IN CHALLENGING TIMES ........ 54

**"Elm və təhsil" nəşriyyatının direktoru:**
**professor Nadir Məmmədli**

Çapa imzalanmış **25. 11. 2017.**
Şərti çap vərəqi **3,5** Sifariş № **1**
Kağız farmatı **70x100 1/16.** Tiraj **300.**

***Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssəsində***
***hazır diapozitlərdən çap olunmuşdur.***
***E-mail: elm. ve. tehsil@mail. ru***
*Tel: 497-16-32; 012 511 05-58, 050 201-05-58, 426 -72 -27*
*Ünvan: Bakı, İçəri şəhər,3-cü Maqamayev döngəsi 8/4.*